Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Gəncə Dövlət Universitetinin

050107 – İbtidai sinif müəllimliyi ixtisası üzrə

---

**Proqram akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. **Yuliya Kərimova** - “Ağ Yelkən” metodologiya və tədris mərkəzinin təsisçisi və icraçı direktoru

**Üzvlər:**

2. **Leyla Əliyeva** - Xəzər Universiteti, Təhsil departamentinin koordinatoru, p.ü.f.d dosent
3. **Fidan Sarıbəyli** - Bakı Fransız liseyinin müəllimi, p.ü.f.d
4. **Könül Hüseynova** - Bakı şəhəri, Xətai rayonu 56 nömrəli məktəbin direktoru
5. **Leyla Cabbarzadə** - Böyük Britaniyanın Şeffild Universitetinin Təhsil üzrə doktorantı

**Mündəricat**


**Giriş ……………………………………………………………………………….3**

**Qiymətləndirilən təhsil proqramına dair məlumatlar ....................................................3**

**Təhsil proqramının akkreditasiya qiymətləndirilmə nəticələri ………………………..…4**

**Qiymətləndirmənin icmalı ...........................................................................................4**

**1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu ..............................................................5**

**2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması ........................................7**

**3. Təhsil proqramı üzrə tədrisin təşkili .........................................................................8**

**4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları .............................20**

**5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları ..............................25**

**6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu**

**və maddi- texniki baza ...............................................................................................36**

**7.Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi**

**və təhsil sənədinin verilməsi ....................................................................................39**

**8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti ..................................... 46**

**9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris ............................................................ 52**

**10. Təhsil proqramının monitorinqi ...........................................................................58**

**11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi ............................60**

**12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti**

**və məzunlarla davamlı əlaqə sistemi ......................................................................61**

**Komissiyanın istiqamətlər üzrə təhlili ........................................................................63**

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ...................76**

**Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi ......................... 76**

# I. Giriş

## 1. Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Gəncə Dövlət Universiteti |
| Təhsil səviyyəsi | Bakalavr |
| Təhsil Proqramının şifri və adı | 050107 |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | Proqram akkreditasiyası ilk dəfə keçirilir. |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | 20 dekabr 2002-ci il tarixdə 53 №-li "Dövlət qeydiyyatı haqqında şəhadətnamə" ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmışdır. |
| Təhsil müəssisəsinin rəhbəri | Prof. Yusif Əmiralı oğlu Yusibov |
| Fakültənin adı | Pedaqoji fakültə |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | 2 |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 324 nəfər (d/s: 133 nəfər, ö/ə: 191 nəfər)<br>Magistratura: 22 nəfər (d/s: 0 nəfər, ö/ə: 22 nəfər) |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | Bakalavriat:<br>D/S: 1710 manat<br>Ö/Ə: I kurs 1700 manat, II, III və IV kurs 1500 manat<br>Magistratura: |

| | |
|---|---|
| | D/S: 1790 mant<br>Ö/Ə: I kurs 1300 manat, II kurs 1100 manat |
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | Ümumi heyətin sayı: 76 nəfər<br>İxtisas fənləri üzrə: 24 nəfər<br>Qeyri-ixtisas və təcrübə üzrə: 52 nəfər |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: yox<br>Saathesabı: 4 nəfər |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@gdu.edu.az, +994222667033 |
| Təhsil müəssisəsinin hüquqi ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |
| Təhsil müəssisəsinin faktiki ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |

## II. Təhsil proqramının akkreditasiya qiymətləndirilmə nəticələri

### 2. Qiymətləndirmənin icmalı

Gəncə Dövlət Universitetində (GDU) "İbtidai sinif müəllimliyi" ixtisası Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) 2022-ci il 14 noyabr tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil proqramının akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Komissiya 24 aprel 2024-cü il tarixində müəssisəyə səfər etmişdir. Akkreditasiya Komissiyasının meyarlar üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir.

## 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu

### 1.1 Təhsil proqramı üzrə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

İbtidai sinif müəllimliyi ixtisasında təhsilalanların say həddi üzrə sifarişlər verilərkən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (ETN) müvafiq məktubu əsasında əvvəlki illərin faktiki qəbulu, universitetin elmi-pedaqoji potensialı, tədris resursları, infrastruktur imkanları və s. nəzərə alınaraq təhsilalanların say həddini müəyyən etmək üçün maraqlı tərəflərin iştirakı ilə Pedaqoji fakültənin və universitetin Elmi Şurasında aparılan müzakirələrdən sonra optimal say həddinin proqnoz layihəsi ETN-nə rəsmi məktub hazırlanaraq göndərilir.

İbtidai sinif müəllimliyi ixtisası üzrə təhsilalanların qəbulu ARNK-nin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. (bax: ATM-in Özünütəhlil hesabatı)




*Qrafik 1: Son 5 il üzrə qəbul göstəriciləri*

| Tədris illəri | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|
| Qəbul planı | 40 | 60 | 60 | 60 | 80 |
| Faktiki qəbul | 40 | 60 | 59 | 60 | 80 |

*Cədvəl 1: Son 5 il üzrə qəbul göstəriciləri*

Təhsil proqramına təhsilalanların qəbulu müvafiq tələblərə uyğun aparılır.

## 1.2 Təhsil proqramı üzrə ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Özünütəhlil hesabatında təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsində əmək bazarının tələblərinə uyğunluq dedikdə, məzunların Müəllimlərin İşə Qəbul Komissiyasının universitet üzrə nəticələri nəzərdə tutulub. Tədris illərinə görə əmək bazarının tələblərinə uyğun sifarişlərin hazırlanması və təkliflərin verilməsi zamanı, ilk olaraq, son illərdəki "İbtidai sinif müəllimliyi" ixtisası üzrə məzunların işlə təmin olunma statistikaları nəzərə alınıb.

Ali təhsil müəssisəsinin Özünütəhlil hesabatında və sahə səfəri çərçivəsində keçirilən görüşlər zamanı ixtisas üzrə tələbə qəbulu sifarişinin formalaşması prosesində müəyyən görüşlər və müzakirələr keçirildiyi, geniş və ətraflı təhlillər, müsahibə və şifahi sorğular aparıldığı qeyd olunmuşdur. GDU-ya sahə səfəri zamanı proqram rəhbəri ilə müzakirə, universitet və fakültə şuralarının iclaslarının protokollarını təhlil edərkən müəyyən olundu ki, təhsilalanların say həddi üzrə sifarişlər fakültə və universitet şuralarında maraqlı tərəflərin iştirakı ilə müzakirə olunmamışdır. Belə ki, cari tədris ilində əvvəlki illərə nisbətən daha çox sayda tələbə qəbulunu əsaslı şəkildə şərtləndirən faktorların təhlilinə dair yazılı hesabat fakültə tərəfindən təqdim olunmamışdır. Bu səbəbdən cari tədris ilində tələbə qəbulunun əsaslı şəkildə artırılmasını şərtləndirən amillərin uyğunluğunu müəyyən etmək mümkün olmamışdır.

Bu istiqamətdə geniş və ətraflı təhlillərin, müzakirələrin, sorğu və araşdırmaların aparılması məqsədəmüvafiqdir. Müxtəlif ixtisaslar üzrə əmək bazarının real vəziyyətinin müəyyənləşməsi tələbə qəbulu proqnozunun faydalılığını və xərclərin səmərəliliyini artırır.

## 1.3 Təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəhlil hesabatında qeyd edildiyi kimi, təhsil proqramı üzrə tələbə qəbulu sifarişilərinin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün maraqlı tərəflərlə görüşlər və müzakirələr aparılsa da, sahə səfəri zamanı fakültə tərəfindən rəsmiləşdirilmiş protokollar və ya təsdiqedici sənədlər təqdim olunmamışdır. Bu sahədə işəgötürənlərin cəlb edilməsi və məzunların məşğulluğuna dair daha dəqiq məlumat bazasının yaradılması və illər üzrə təhlillərin aparılması məqsədəuyğun hesab edilir.

Əmək bazarının ölçüləbilən göstəricilərə əsaslanan, uzun və qısa-müddətli təhlillərin aparılması mexanizminin yaradılması və işəgötürənlərin bu prosesdə faydalı iştirakının təmin edilməsi Komissiya tərəfindən tövsiyə edilir.

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

### 2.1 Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi

"İbtidai sinif müəllimliyi" ixtisası Azərbaycan Respublikasının Nazirlər Kabinetinin (ARNK) 18 iyul 2018-ci il tarixli № 311 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin (AzMKÇ) VI səviyyəsinin deskriptorlarına (təsvirlərinə), təhsil proqramının və fənlərin təlim nəticələrinə, təhsilalanların AKTTS üzrə kredit sayına (240 kredit) uyğun olaraq müəyyən edilir.

### 2.2 Tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi

Təhsil proqramı üzrə kreditlərin həcmi ETN-nin 22.08.2014-cü il tarixli 913 saylı əmri ilə təsdiq edilmiş və hal-hazırda tədris prosesində tətbiq edilən ETN-nin 21.08.2020-ci il tarixli F-381 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramı əsasında müəyyən edilir. Təhsil proqramı ARNK-nin 24 dekabr 2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və GDU Elmi Şurasının müvafiq əmri ilə təsdiq edilmiş "Gəncə Dövlət Universitetinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na müvafiq olaraq kredit sistemi əsasında təşkil olunur.

Özünütəhlil hesabatında digər ali təhsil müəssisələrində qazanılmış kreditlərin sayı GDU Elmi Şurasının müvafiq əmri ilə təsdiq edilmiş "Universitetin bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları"na uyğun tənzimləndiyi qeyd edilir.

Sahə səfəri zamanı məlum oldu ki, kreditlərin tanınması və ekvivalentliyinin müəyyən edilməsi üçün tələbənin transkripti, təhsil proqramları, fənn proqramları, təlim nəticələri və digər zəruri sənədlərin təhlilini əks etdirən müvafiq sənədləşmə aparılmamışdır. Transfer olunan (köçürülən) tələbələrin əvvəl topladıqları kreditlərin sayının və fənlərin məzmununun

uyğunluğunun tanınmasını təsdiq edən rəsmi sənədləşmələrin formal həyata keçirilidyi müəyyən edilmişdir. Ancaq tələbənin akademik kreditlərinin sayı tyutorların iştirakı ilə tələbənin fərdi tədris planı tərtib olunarkən nəzərə alınmışdır.

### 2.3 Tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması

Özünütəhlil hesabatında tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması "İbtidai sinif müəllimliyi" ixtisasında təhsil alan, köçürülən, bərpa olunan subbakalavrdan qəbul olunan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması ARNK-nin 24 dekabr 2013-cü il tarixli № 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və 20.05.2019-cu il tarixli 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydaları və GDU Elmi Şurasının 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli, 5/10 saylı əmri ilə təsdiq edilmiş "Universitetin bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları" əsasında tənzimlənir.

## 3. Təhsil proqramı üzrə tədrisin təşkili

### 3.1 Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

"İbtidai sinif müəllimliyi" təhsil proqramı üzrə tədris planı ETN-nin 21.08.2020-ci il tarixli F-381 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramı əsasında aparılır. Tədris planında ümumi fənlərə, ixtisas fənlərinə, ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər, pedaqoji internaturaya ayrılan kreditlər qüvvədə olan təhsil proqramının (ETN-in 21.08.2020-ci il tarixli F-381 saylı əmri ilə təsdiq olunmuş) tələblərinə uyğun bölüşdürülmüşdür. Tədris planlarında fənlərin kodları, kreditlər, auditoriya və auditoriyadan kənar saatları, məşğələlərə ayrılan saatlar, fənlərin prerekvizitliyi, həftəlik auditoriya saatları AR NK-nin 24 dekabr 2013-cü il tarixli № 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura

səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın müddəaları əsasında təşkil edilmişdir.

### 3.2 Təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

İxtisas üzrə tədris planında göstərilmiş fənlərin şifrəsi, tədris illəri, kreditlərin sayı, prerekvizit və korekvizit fənlər, onların tədrisi nəzərdə tutulan semestrlər haqqında məlumatları özündə əks etdirən tədris qrafiki tərtib edilmişdir.

Özünütəhlil hesabatında "İbtidai sinif müəllimliyi" ixtisası üzrə tədris qrafikinin Pedaqoji fakültənin internet ünvanında yerləşdirildiyi qeyd olunmuşdur. Lakin fakültənin veb səhifəsinə nəzər yetirildiyində, tədris qrafikinin müvafiq səhifədə yerləşdirilmədiyi aşkarlanmışdır.

### 3.3 Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsü aparılmışdır. Eyni zamanda ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır.

Tədris planında seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat miqdarının 31%-ni təşkil edir.

### 3.4 Təhsil proqramı üzrə tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Təhsil proqramı üzrə 2016-cı ildə tərtib edilmiş tədris planının təhlili göstərir ki, ümumi auditoriya saatlarından humanitar fənlərə 20 faiz, peşə hazırlığını təmin edən fənlərə isə 80 faiz ayrılmışdır.

| **Humanitar fənlər** | | **İxtisas peşə fənləri** | | **Peşə hazırlığı üzrə seçmə fənlər** | | **Ümumi** | |
|---|---|---|---|---|---|---|---|
| Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı |
| 44 | 555 | 140 | 1815 | 26 | 360 | 210 | 2730 |

Təhsil proqramı üzrə 2020-ci ildə tərtib edilmiş tədris planında da ümumi auditoriya saatlarından humanitar fənlərə 15 faiz, peşə hazırlığını əhatə edən fənlərə 85 faiz yer ayrılmışdır.

| **Ümumi fənlər** | | **İxtisas fənləri** | | **Ali təhsil müəssisəsinin müəyyən etdiyi fənlər** | | **Ümumi** | |
|---|---|---|---|---|---|---|---|
| Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı | Kredit | Auditoriya saatı |
| 30 | 300 | 120 | 1200 | 60 | 600 | 210 | 2100 |

Yuxarıdakı cədvəllərdən aydın olur ki, tədris planlarında ümumi və ixtisas fənləri arasında balans qorunmuşdur.

### 3.4 Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Özünütəhlil hesabatında təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin əlçatanlığının təmin edilməsi məqsədilə təlim nəticələrinin Pedaqoji fakültənin internet səhifəsində yerləşdirildiyi qeyd edilmiş və müvafiq link göstərilmişdir (https://pedf.gdu.edu.az/?page_id=8361). Lakin səhifə ilə tanış olduqda məlum oldu ki, veb səhifədə təhsil proqramının və fənlərin təlim nəticələri yerləşdirilməmiş və əlçatanlıq təmin edilməmişdir.

Özünütəhlil hesabatında ixtisas kafedralarında təhsil proqramı üzrə fənlərin təlim nəticələri “Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət Komissiyası” tərəfindən hər semestrin əvvəlində təşkil edilmiş iclaslarda müzakirə olunduğu qeyd edilmişdir. Sahə baxışı və müsahibələrdən məlum oldu ki, fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmi mövcud deyil.

Kafedralar tərəfindən təqdim olunmuş fəaliyyət planlarında bu istiqamətdə işlərin aparılmasına dair qeydlər yoxdur. Pedaqoji fakültənin dekanlığı tərəfindən tərtib edilmiş 2023-2024-cü tədris ili üzrə fəaliyyət planında təlim nəticələrinin təhlili, nəzarət edilməsi və qiymətləndirilməsi üzrə işlərin aparılması nəzərdə tutulmayıb. Müsahibələr zamanı məlum

olmuşdur ki, kafedralarda müvafiq təhlillərin aparılması üçün mütəxəssislərin lazımi səviyyədə bilik və təcrübələri yoxdur. Kafedraların daxili imkanları ilə bu təhlilləri apara bilməyəcəkləri müşahidə edilmişdir. Bu səbəbdən ixtisas kafedraları, fakültə, Keyfiyyət təminatı mərkəzi və Tədris departamenti arasında koordinasiyanın yaradılması tövsiyə olunur.

**3.6 Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Təhsil proqramı üzrə fənlərin təlim nəticələri sillabuslarda əks olunub. Müsahibələr zamanı məlum olmuşdur ki, təlim nəticələrinin sillabuslarda yazılması istiqamətində işlər 2023-2024-cü tədris ilinin əvvəlində başlanılmışdır. Lakin ixtisas kafedralarının müəllim heyəti ilə müsahibə zamanı fənlər üzrə təlim nəticələrinin məqsədi və əhəmiyyəti barədə suallar verilmiş və müəyyən olunmuşdur ki, bir sıra müəllimlər tədris etdiyi fənlərin təlim nəticələrinin əhəmiyyətini izah edə bilmirlər.

Təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması məsələsi kafedralar tərəfindən diqqətdə saxlanılır. Özünütəhlil hesabatında göstərildiyi kimi, nəzarət mexanizmi "Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət Komissiyası" tərəfindən həyata keçirilməlidir (bax: Özünütəhlil hesabatı, səh 19). Lakin sahə səfəri zamanı həmin Komissiyanın fəaliyyətinə dair planlar, keçirilmiş iclasların protokolları, verilmiş qərarlara dair hesabatlar kafedralar tərəfindən təqdim olunmamışdır. Müvafiq məlumat universitetin veb səhifəsində də əks olunmamışdır.

Kafedralar tərəfindən təqdim olunmuş "Nəzarət komissiyalarının fəaliyyət planları" adlandırılan sənədlər bir-birini təkrarlayan fəaliyyətlərin siyahısından ibarət olmuş və təlim nəticələrinin təhlili və uyğunlaşdırılması istiqamətində aparılan işlər barədə məlumatları əks etdirməmişdir.

Bu istiqamətdə işlərin aparılmasını 30.01.2023-cü il tarixində GDU-nun rektoru tərəfindən 5/20 saylı əmrilə təsdiq olunmuş "Təlim və tədris siyasəti" sənədində göstərilmiş PİNT (planlaşdırma, icra etmə, nəzarət və təkmilləşdirmə) modelinə uyğunlaşdırılması tövsiyə edilir.

**3.7 Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

"İbtidai sinif müəllimliyi" ixtisasının tədris planında tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdan çox deyildir, semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı 6-nı keçmir, həftəlik auditoriya saatı 20 saatdır. Bu da tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir.

**3.8 Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənlər, onların kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları fakültədə mövcuddur. Lakin sahə səfəri zamanı fakültədə sənədlərə baxış nəticəsində müəyyən çatışmazlıqlar nəzərə çarpmışdır. Tədris ili və qruplar üzrə tələbələrin fərdi tədris planlarının özləri tərəfindən hazırlanmadığı müşahidə olunmuşdur. Belə ki, qrup üzrə fərdi tədris planları eyni rəngdə diyircəkli qələmlə, eyni xətlə yazılmışdır. Tələbələrlə müsahibə zamanı "Fərdi tədris planınızı necə hazırlayırsız?" sualına cavablarında onlara verilən vərəqdən köçürdüklərini bildirdilər. Tədris qrafikinin nə olduğu, fərdi iş planının hazırlanmasında ona necə istinad edilməsi barədə tələbələrin məlumatları yox idi.

**3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

"İbtidai sinif müəllimliyi" ixtisasının tədris planı, tədris qrafiki və tələbələrin fərdi tədris planları əsasında illik işçi tədris planı hazırlanmışdır. İşçi tədris planlarında ixtisas üzrə cari tədris ilində tədris olunacaq fənlərin adı, dərsin növünə görə saat bölgüsü, həftəlik auditoriya saatı, fənlərin kreditləri və tələbələrin sayı qeyd olunaraq tədris məsələləri üzrə prorektor tərəfindən təsdiq edilmişdir.

**3.10 Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Kafedralarda hər bir müəllimin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə, həmçinin laboratoriya məşğələlərinə ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, fənn üzrə tələbələrin sayını, fakültə və fənlərin kodunu özündə əks etdirən illik işçi tədris planları mövcuddur (bax: İxtisas üzrə işçi tədris planı).

**3.11 Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

İxtisas üzrə fənlərin spesifikliyi nəzərə alınmaqla tədris planlarında auditoriya saatları mühazirə və seminar məşğələsi formasında təşkil olunur. Xarici dildə tədris olunan "İşgüzar və akademik kommunikasiya" fənninin tədris planında praktik məşğələ kimi nəzərdə tutulan saatlar seminar məşğələ kimi keçirilir. Sahə baxışı zamanı müəyyən edildi ki, Xarici dildə işgüzar və akademik kommunikasiya fənninin tədrisi prosesində qruplar yarımqruplara bölünərək, praktik məşğələ formasında tədrisin təşkili həyata keçirilir.

ATM-in Özünütəhlil hesabatında qeyd edilmişdir ki, proqram üzrə tədris növlərinin təşkili vəziyyətinin monitorinqi fakültə üzrə "Qiymətləndirmə və Monitorinq Komissiyası" tərəfindən aparılır, komissiya ayrı-ayrı professor-müəllim heyətinin açıq dərslərini dinləyib müzakirə edir və istiqamətverici tədbirlər həyata keçirir. Lakin sahə səfəri zamanı komissiyanın fəaliyyətini əks etdirən sənədlər (fəaliyyət planları, iclas protokolları, qərarlar, yerinə yetirilmiş işlərin hesabatları və s.) təqdim olunmadığından, həmin komissiyanın fəaliyyətinin səmərəliliyini dəyərləndirmək mümkün olmadı.

**3.12 Təhsil proqramı üzrə məsləhət xidmətinin təşkili vəziyyəti**

Təhsil proqramı üzrə Akademik Məsləhətçilər (tyutor) xidməti GDU Elmi Şurasının 26.05.2022-ci il tarixli (pr. № 13) Qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri əsasında yaradılaraq, fəaliyyəti təşkil edilmişdir. Yeni işə qəbul olunmuş akademik məsləhətçilərə (tyutorlara) təlimlər təşkil olunmuşdur. Bundan əlavə kafedralarda da müvafiq günlərdə və saatlarda tələbələrə məsləhət xidməti təşkil edilir. Hər bir kafedranın elanlar lövhəsində tələbələr üçün məsləhət günlərinin cədvəli öz əksini tapmışdır.

### 3.13 Təhsil proqramına uyğun müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

İxtisas üzrə fənnin xüsusiyyətindən asılı olaraq sərbəst işlərin mövzuları fənn sillabuslarında qeyd edilmişdir. Özünütəhlil hesabatında sərbəst işlərin formalarının fərdi, komanda və qrup formasında hazırlandığı qeyd olunsa da, tələbələrlə müsahibə zamanı müəyyən olunmuşdur ki, sərbəst işlər əsasən fərdi və yazılı formada qəbul edilir. Müsahibələr zamanı tələbələr sərbəst işlərini bir-başa internet resurslarından tam köçürüb təhvil verdiklərini qeyd etdilər. Fənn sillabuslarına görə, hər fənn üzrə 3 (üç) sərbəst iş təyin olunur. Semestr ərzində illik 2 ay ərzində yerinə yetirilən sərbəst işlər 0-3 bal aralığında, sonuncu aydakı isə 0-4 bal aralığında qiymətləndirilir.

Təhsil proqramında və ümumiyyətlə Pedaqoji fakültədə tələbələrin sərbəst işlərinin yerinə yetirilməsinə dair fənnin təlim nəticələrilə uyğunluq və tələbələrin öyrənməsi üçün faydalılıq baxımından daha səmərəli format düşünülməlidir. Bu sahədə ixtisas və digər kafedralar arasında koordinasiyalı fəaliyyətlərin qurulması və əlaqəli işlərin aparılması məqsədəmüvafiq hesab edilir.

### 3.14 Təhsil proqramı üzrə təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Təhsil proqramı üzrə 2023/2024-cü tədris ilindən etibarən tədris planına müvafiq olaraq 20 həftəlik 30 kredit olmaqla pedaqoji internatura təşkil olunur. Pedaqoji internatura Gəncə şəhər Regional Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil müəssisələri ilə bağlanılmış müqavilə əsasında təşkil edilir.

Pedaqoji internatura üçün nəzərdə tutulmuş 30 kreditin 21-nin ümumi orta məktəbdə təcrübənin keçirilməsinə, 9-nun isə hesabatın hazırlanması, təqdim olunması və ali təhsil müəssisəsinin təşkil etdiyi ixtisas üzrə təcrübə komissiyasında hesabatın müdafiəsinə verilməsi müəyyən edilmişdir.

Müvafiq struktur rəhbərləri ilə müsahibə zamanı məlum oldu ki, pedaqoji internaturanın qiymətləndirilməsi mexanizmi hazırlanmamış, qiymətləndirmə proseduru qeyri-müəyyəndir.

Qeyd etmək lazımdır ki, GDU Elmi Şurasının 31.01.2024-cü il tarixli iclasında rektorun 09.02.2024-cü il tarixli 5/50 saylı əmri ilə təsdiqlənmiş “Təcrübələrin təşkili, keçirilməsi və qiymətləndirilməsi mexanizmləri” adlı sənəddə (baxış zamanı təqdim olunmuşdur) “təcrübənin

qiymətləndirilməsi” hissəsində qiymətləndirmə üçün meyarlar və alətlərin hazırlanması, qiymətləndirmənin həyata keçirilməsinin təhsil müəssisəsi və təcrübə bazası tərəfindən həyata keçirildiyi qeyd edilmişdir. Lakin təcrübə keçirildiyi məktəblərin nümayəndələri ilə görüş zamanı onlar bu proses haqqında dəqiq məlumat verə bilmədilər. Həmçinin müvafiq şöbənin rəhbəri ilə müsahibə zamanı təcrübənin qiymətləndirmə meyarları və alətləri barədə məlumat əldə etmək mümkün olmamışdır.

**3.15 Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyəti**

Sahə səfəri zamanı müsahibələrdən aydın oldu ki, fakültədə təhsil proqramı üzrə stajkeçmə Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi, STEAM laboratoriyasının istifadəsi, müəllimlərin təcrübəsinin və müasir təlim texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə təcrübəli professor-müəllim heyətinin nümunəvi dərsləri, gənc müəllimlərə məsləhətləri və səriştəli müəllimlərin ustad dərslərinin təşkili formasında həyata keçirilir.

Özünütəhlil hesabatında əməkdaşların bilik və bacarıqlarının artırılması üçün beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakının təmin edildiyi qeyd edilsə də, müsahibə və yerində baxış zamanı bu qeyd öz təsdiqini tapmadı. Müsahibələr və müşahidələr zamanı təhsil proqramı üzrə stajkeçmənin qeyri-qənaətbəxş təşkil olunduğu müəyyən edilmişdir. Müsahibə zamanı müəllim heyətinin də stajkeçməyə, öz peşəkarlıq səviyyələrinin inkişafına maraq göstərmədiyi müəyyən edildi. Buna səbəb kimi ailə vəziyyəti, şəhərdən çıxmağın mümkünsüzlüyü və s. məsələlər qeyd edilmişdir.

Qeyd edək ki, əməkdaşların bilik və bacarıqlarının artırılması üçün beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakı üçün universitet tərəfindən təşviqedici fəaliyyətlər həyata keçirilmir. Beynəlxalq mübadilə proqramlarında iştirak edən əməkdaşlar əksər hallarda beynəlxalq və innovasiyalar şöbəsinin struktur rəhbərləri və əməkdaşlarıdır.

Bu vəziyyət ATM-in Özünütəhlil hesabatında da öz əksini tapmışdır. Bu vəziyyətə səbəb olaraq fakültə əməkdaşlarının və professor-müəllim heyətinin ingilis dili biliklərinin olmaması qeyd olunmuş, bu isə öz növbəsində ATM-in strateji hədəfi olan beynəlmiləlləşmə istiqamətində aparılan işlərin irəliləməsinə ciddi mane ola bilər.

Akkreditasiya Komissiyası tövsiyə edir ki, heyətin bilik və bacarıqların artırılmasına dair dəqiq göstəricilərə əsaslanan uzun-müddətli plan hazırlansın və bu istiqamətdə fəaliyyətlər

artırılsın. Bu sahədə uğurlu göstəriciləri olan yerli ATM-lərlə əməkdaşlıq əlaqələrinin qurulması tövsiyə edilir.

**3.16 Təhsil proqramı üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti**

Özünütəhlil hesabatında qeyd olunmuşdur ki, "İbtidai sinif müəllimliyi" ixtisasının spesifikası və profili nəzərə alınmaqla, tədris planında kurs layihəsi (işi) və referatların hazırlanması və müdafiəsinin təşkili nəzərdə tutulmamışdır (bax: Özünütəhlil hesabatı, səh. 23).

Kurs işlərinə ayrılan saatlar hesabına kafedralarda yaranan lüzumsuz tədris yüklərinin onların mövcud imkanlarından daha çox artırılmasına səbəb olması və bunun universitet üçün əlavə maliyyə yükü hesab edilməsi kimi məsələlər ilə əlaqədar olaraq hazırda kurs layihəsinin (işi) hazırlanması məqsədəuyğun hesab edilməmişdir. Göstərilənləri nəzərə alaraq, bu indikator üzrə qiymətləndirmə aparılması məqsədəuyğun deyildir.

**3.17 Təhsil proqramına uyğun buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti**

Özünütəhlil hesabatında qeyd edildiyi kimi, 2016-cı ildə təsdiq edilmiş tədris planına müvafiq olaraq sonuncu tədris ili tələbələrin dövlət attestasiyası 2 istiqamətdə, ixtisas üzrə fənlərin buraxılış yekun dövlət imtahanı (yazılı formada) və buraxılış işinin müdafiəsi formasında təşkil olunub. Yekun Dövlət İmtahanı və buraxılış işinin müdafiəsi ARNK-nin 23.04.2010-cu il tarixli №75 Qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və ETN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin və GDU Elmi Şurasının 09.12.2022-ci il tarixli iclasının Qərarı (pr. № 03) və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "Gəncə Dövlət Universitetinin bakalavriat səviyyəsində Dövlət Attestasiyası haqqında Qaydaları"nın tələbləri çərçivəsində təşkil edilmişdir. Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar 2021-ci ildə YDA ARNK-nin 05 iyun 2021-ci il tarixli 158 saylı "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə Qərarı"na

əsasən tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab edilmişdir.

Təhsil proqramı üzrə 2020-ci ildə təsdiq edilmiş tədris planına müvafiq olaraq Yekun Dövlət Attestasiyası nəzərdə tutulmamışdır.

### 3.18 Təhsil proqramı üzrə imtahan sessiyasının təşkili vəziyyəti

Təhsil proqramı üzrə imtahan sessiyası hər semestr üçün ETN-nin əmrinə və GDU Elmi Şuranın 28.12.2022-ci il tarixli (pr. № 03) Qərarı, rektorun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "GDU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları"nın tələblərinə müvafiq olaraq təşkil olunur.

Semestr imtahanları əsasən test üsulu (kompüter vasitəsilə), yazılı və şifahi, xüsusi qabiliyyət tələb edən fənlərdə isə qabiliyyət formasında təşkil edilir. Yerində baxış zamanı məlum oldu ki, xüsusi qabiliyyət formasında imtahan kimi, təhsil proqramı üzrə "İbtidai siniflərdə musiqi və onun tədrisi metodikası", "İbtidai siniflərdə təsviri incəsənət və onun tədrisi metodikası", "İbtidai siniflərdə fiziki tərbiyə və onun tədrisi metodikası" fənlərinin imtahanlarının təşkili nəzərdə tutulmuşdur. Müsahibə zamanı məlum oldu ki, "İbtidai siniflərdə musiqi və onun tədrisi metodikası" fənninə tədris planında 45 saat auditoriya saatı nəzərdə tutulub. Auditoriya saatı 45 saat olan fəndən tələbənin qabiliyyət imtahanı verməsi qeyri-mümkündür, çünki musiqi alətlərində ifa edə bilməyən tələbənin biliyinin qiymətləndirilməsi qeyri-obyektiv qiymətləndiriləcəkdir.

Hər semestrin imtahan sessiyası müddətində yarana biləcək narazılıqların həll edilməsi məqsədilə rektorun müvafiq əmrinə əsasən Apellyasiya Komissiyası və İmtahan Qərargahı fəaliyyət göstərir. İmtahan sessiyasının gedişatını izləmək məqsədi ilə ictimaiyyət nümayəndələrindən ibarət İctimai Nəzarət Şurasının üzvləri, KİV nümayəndələri və valideynlər dəvət olunurlar və bu proses kütləvi informasiya vasitələrində işıqlandırılır (bax:https://gdu.edu.az/gəncə-dovlət-universitetində-mediatur-təskil-edilib/, https://gdu.edu.az/gəncə-dovlət-universitetində-payiz-semestrinin-imtahan-sessiyasina-ictimai-baxis-kecirilib-2/ ).

### 3.19 Təhsil proqramı üzrə yay semestrinin təşkili vəziyyəti

Özünütəhlil hesabatına görə, proqram üzrə akademik borcu olan tələbələr alt qruplarda fənləri yenidən dinləyərək müvəffəq qiymət aldıqlarına görə və müraciətlər edilmədiyi səbəbindən yay semestri təşkil edilmir.

Təhsilalanların fərqli öyrənmə metodlarını və templərini nəzərə almaqla, müxtəlif növ qiymətləndirmə üsulları və formaları tətbiq etməklə təşkil edilən tədris prosesində bütün tələbələrin müvəffəq nəticə göstərməsi və bu mənzərənin təkrar baş verməsi diqqət və dəqiq araşdırmanı tələb edir. Komissiyanın tövsiyəsi tələbələrin qiymətləndirilməsinin obyektivlik, etibarlılıq və dürüstlük prinsiplərinə əsaslanaraq aparılmasına önəm verilməsindən ibarətdir.

### 3.20 Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Özünütəhlil hesabatında və müsahibələr zamanı məlum oldu ki, tələbələr ixtisas üzrə payız və yaz semestrlərinin imtahan sessiyasında bütün fənlərdən uğurlu nəticə göstərir və tələbələrin akademik borcları qalmır. Bütün tələbələrin fənlər üzrə təlim nəticələrinin mənimsənilməsi, imtahan tapşırıqlarının yerinə yetirilməsi və müəllimlər tərəfindən aparılan qiymətləndirilmə prosesinin obyektivliyi sual doğurur. Akademik borcu olan tələbələrin sayındakı artım dinamikası digər ali təhsil müəssisələrindən köçürülmə yolu ilə gələn tələbələrin hesabına olur.




*Qrafik 2: Akademik borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*

### 3.21 Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

İxtisas üzrə tədris illərinin payız və yaz semestrlərində akademik borcu qalan fənlərin sayındakı artım dinamikası digər ali təhsil müəssisələrindən köçürülmə yolu ilə gələn

tələbələrin hesabına artmışdır, bu da fənlərin çəkisinə uyğun olaraq qiymətləndirmə prosesinin müəllimlər tərəfindən obyektiv aparılmasına şübhə yaradır. Nümunə olaraq, ibtidai siniflərdə riyaziyyat və onun tədrisi metodikası, Xarici dil və işgüzar akademik kommunikasiya fənlərini göstərmək olar. Hesabat dövrünün birinci ilində akademik borcu olan tələbələrin sayının sonuncu ildə olanların sayından nisbətən az olması müşahidə edilir.




*Qrafik 3: Akademik borcu olan tələbələrin ümumi həcminin tədris illəri üzrə dinamikası*

### 3.22 Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyətinin monitorinqi “Monitorinq Qrupu”u tərəfindən “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi təlimatı” və “Keyfiyyət təminatı və qiymətləndirmə komissiyasının əsasnaməsi” əsasında aparıldığı qeyd olunur. Monitorinq yalnız açıq dərslərin keçirilməsi və müzakirəsi səviyyəsində aparılmışdır. Hesabat dövrü ərzində yalnız bir dəfə tələbə məmnunluğu barədə sorğu keçirilmişdir.

Sahə səfəri zamanı müəyyən olmuşdur ki, təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi məqsədilə sistematik, planlı şəkildə tədbirlər həyata keçirilmir. Bu qənaətə ixtisas kafedraları rəhbərləri, müəlllimləri, fakültə rəhbərliyi, tədris departamenti rəhbəri ilə müsahibələrdən alınan məlumatın təhlili nəticəsində, həmçinin Pedaqoji fakültə dekanlığının 2023-2024-cü tədris ili üçün yaradılmış fəaliyyət planının təhlili nəticəsində gəlinmişdir. Bu istiqamətdə işlərin səmərəliliyinin yüksəldilməsi və yerinə yetirilməsi üçün fakültə rəhbərinin, ixtisas kafedralarının, Tədris departamentinin və

Keyfiyyət təminatı mərkəzinin fəaliyyətlərinin əlaqəli şəkildə planlaşdırılması və yerinə yetirilməsi məqsədəmüvafiqdir.

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

### 4.1 Təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Təhsil proqramı üzrə təlim nəticələrinin əldə edilməsi üçün tətbiq olunan metod və texnologiyalardan istifadəni dəyərləndirmək məqsədilə bir sıra dərslərin və praktik məşğələlərin müşahidəsi aparılmışdır. Tədris mühazirə və seminar formasında, dil dərsləri isə praktik formada təşkil olunur. Müşahidələri aparıldığı dərslərdə müəllimlərin tətbiq etdiyi metodlar əsasən keçirilmiş material üzərində frontal sorğuların aparılmasından ibarətdir. Belə ki, müəllimlərin verdiyi suallar əsasən qapalı, hər hansı məlumatı xatırlamağı tələb edən sual xarakterli idi. Suallara cavab verən tələbələr isə ön sıralarda müəllimlərlə üzbəüz oturanlar idi. Dərslərdə ünsiyyət təşəbbüsü əsasən müəllimlər tərəfindən verilir, tələbələr ya cavab verən, ya da passiv dinləyici qismində iştirak edirdilər.

Auditoriyalarda proyektorlardan istifadə zamanı təhlükəsizlik qaydaları pozulmuşdur. Belə ki, proyektorun elektrik daşıyıcısı tələbələrin başları üstündə sallanmış formada qurulubdur. Auditoriyalar ağıllı lövhə ilə deyil, proyektor pərdəsi ilə təmin olunubdur.

Yerində baxış zamanı məlum oldu ki, auditoriyalar internetlə təmin olunmamışdır. Özünütəhlil hesabatında qeyd edilsə də, bütün otaqlar multimedya vasitələri ilə təmin olunmamışdır.

### 4.2 Təhsil proqramı üzrə tədris metodlarında tələbə yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Yuxarıda qeyd edildiyi kimi, tədris prosesində tətbiq olunan metod və yanaşmaların dəyərləndirilməsi məqsədilə bir sıra dərslərin müşahidələri aparılmışdır. Müşahidələr zamanı tələbələrin hər hansı problemin üzərində birgə və ya fərdi işləməsi, səriştələrin formalaşmasına yönəlmiş proses izlənilməmişdir. Müəllimlər tərəfindən tətbiq edilmiş üsullar tələbələrdən daha çox dinləməyi və qapalı (bir düzgün cavab olan) sualları dərhal cavablandırmağı tələb edirdi.

Suallar mühazirə materiallarını əhatə etməklə daha çox düşünmənin aşağı səviyyələrinə uyğun olub, yalnız yadda qalan informasiyaları xatırlamağı tələb edirdi. Müəllimlər elektron təqdimatlardan istifadə edir, lakin təqdimatlar problemli situasiyaların təhlili, hər hansı problemin həlli yollarının müəyyən edilməsi üçün deyil, faktoloji xarakterli məlumatların nümayişi üçün tətbiq edilir. Yeni mövzunun/ideyanın müzakirəsi, bütün tələbələrin iştirak edə biləcəyi səviyyədə müzakirələrin təşkili, problemi həll etmə yollarının müəyyən etməsi üçün kiçik qruplarda və ya fərdi işlərin aparılması müşahidə edilməmişdir.

Müsahibələr zamanı fakültə rəhbərliyi, kafedra rəhbərləri və müəllimlərin problem yönümlü tədrisin mahiyyətinin anlamasında çətinlik çəkdikləri müəyyən edilmişdir. Bu qənaətə gəlmək üçün sillabusların təhlili faydalı məlumat verir, belə ki, müşahidə edilmiş fənlərin silabuslarında qeyd olunmuş müxtəlif üsul və iş formalarının tətbiqinə rast gəlinmədi.

Bu istiqamətdə tədris prosesində fakültə rəhbərliyinin məlumatsızlığı təhsil proqramı üzrə keyfiyyətli təhsilin verilməsinə əngəl təşkil edir.

Fakültə rəhbərliyi tərəfindən tələbələrin şikayətlərinə baxılması da formal xarakter daşıyır, çünki sahə səfəri zamanı prosesin gedişatını təsdiqləyəcək sənədlərə rast gəlinmədi.

Sahə səfəri zamanı müşahidə edilmiş dərslərdə tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətini qeyri-qənaətbəxş hesab etmək olar.

Fakültə rəhbərliyi tərəfindən tədris prosesində bu istiqamətdə müəllimlərə müvafiq dəstəyin artırılması və tələbəyönümlü, problem yönümlü, səriştə əsaslı öyrənmə mühitinin təşkil edilməsi, rəqəmsal texnologiyaların tədris və təlim üçün potensial faydalarından tam istifadə edilməsinə şərait yaradılması tövsiyə olunur.

**4.3 Təhsil proqramı üzrə tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

Tədris metodlarının tətbiqi tədris prosesinin səmərəliyinin yüksəldilməsinə, təhsilalanların yüksək nailiyyətlər əldə etməsinə, onların bilik və peşə hazırlığı səviyyəsinin artırılmasına xidmət edir. Sahə baxışı zamanı müəyyən olundu ki, müəllimlər mühazirə və seminar məşğələlərində təlim metodlarından səmərəli istifadə etmirlər. Müəllim tərəfindən interaktiv təlim metodları seçilərkən tədris proqramının və mövzunun didaktik məqsədinə uyğunluğu, təhsilalanın intellektual səviyyəsi və s. gözlənilmir.

Sahə baxışı zamanı məlum oldu ki, təhsil proqramı üzrə tədris metodları müəllimlər tərəfindən səmərəli tətbiq edilmir.

İxtisas proqramı üzrə müəllimlər üçün ən önəmli məsələlərdən biri təlim metodlarının tətbiqini öyrənmək və bu sahədə peşəkarlıq səviyyələrini yüksəltməkdir.

**4.4 Təhsil proqramı üzrə tətbiq edilən tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının istifadəsi vəziyyəti**

Təhsil proqramı üzrə müəllimlərin tədris prosesində tətbiq etdikləri metodlar öyrənmə, maraqlanma, motivasiya olunma təlim prosesinin məhsuldarlığını müəyyən edən amillər arasında aparıcı yer tutur. Sahə səfəri zamanı təqdim olunan fənn sillabuslarının təhlili zamanı müəyyən olunmuşdur ki, müəllimlərin tətbiq etdikləri metodlar dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürməni təşviq etmir. Tətbiq edilən metodlar daha çox xatırlamaya və qapalı suallar ətrafında əvvəlcədən verilmiş məlumatların mübadiləsinə xidmət edir. Müəllimlər tərəfindən bütün tələbələrin dərsdə fəal iştirakını təmin etmək üçün, fəal düşünmə və ünsiyyətə cəlb etmək istiqamətində səylər göstərilməmiş, daha çox dərsə hazır olan tələbələrlə iş aparılmışdır. Bu isə digər tələbələrin öyrənməsinə mənfi təsir göstərən amillərdəndir.

Müasir təlim metodlarının mənimsənilməsi üçün müəllim heyətinə praktik seminarların, təlimlərin və mühazirələrin təşkil olunması tövsiyə olunur.

**4.5 Təhsil proqramı üzrə tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

4.1; 4.2; 4.3; 4.4 indikatorların təhlilindən göründüyü kimi, səfər zamanı müşahidəsi aparılmış dərslərdə tətbiq edilmiş metodlar tələbələrin fəal cəlb olunmasına, qarşılıqlı ünsiyyətin qurulmasına, problemli situasiyaların təhlil və həllinə yönəldilməmişdir. Eyni zamanda tələbələrin fərdi ehtiyaclarına uyğunlaşdırılmış metodların tətbiqinə də rast gəlinmədi. Müəllimlər dərsləri frontal sorğu üzərində qururlar və əsasən ön sıralarda əyləşən hazırlıqlı tələbələrlə ünsiyyət qurmaqla məhdudlaşırlar. Bununla belə, təhsilverənlərin tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırmaların aparılması səviyyəsi qənaətbəxş hesab edilə bilməz. Müsahibədə iştirak edən müəllimlərin sillabuslarının təhlili nəticəsində bu qənaətə gəlmək olar.

Belə ki, tədrisdə fərdi xüsusiyyətlərə görə fərdiləşdirmə və ya tədris səviyyəsinə görə uyğunlaşdırma aparılmasının səviyyəsini müəyyən etmək mümkün olmamış, hər hansı xüsusi vəziyyətə adaptasiya və ya uyğunlaşdırma sillabuslarda öz əksini tapmamışdır. Müşahidə edilmiş məşğələlərdə isə frontal işlərin aparılması, daha çox artıq keçirilmiş material üzrə sualların verilməsi və hazır cavabları olan tələbələrlə işin aparılması qeydə alınmışdır. Arxa sıralarda əyləşən, dərsdə heç bir aktivlik göstərməyən tələbələrin xüsusi pedaqoji metodlar tətbiq etməklə öyrənmə prosesinə cəlb edilməsi, iştirakları üçün şəraitin yaradılması, vaxtında əks-əlaqənin qurulması, fəal öyrənməni təşviq edən situasiyanın yaradılması qeydə alınmamışdır.

Tədrisdə tətbiq olunan metodlar, yanaşmalar və tələbələrin öyrənməyə cəlbedilmə məsələləri müəllim heyəti üçün ən prioritet məsələlərdən biri kimi müəyyən edilməlidir.

### 4.6 Təhsil proqramı üzrə tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Sahə baxışı zamanı məlum oldu ki, tədris prosesində aktiv öyrənməni təşviq etmək məqsədilə texnoloji vasitələr kimi bəzi auditoriyalarda kompüter, proyektor və proyektor pərdəsindən istifadə edilir. Bəzi auditoriyalar texnoloji avadanlıqlarla təchiz olunmamış və ya təchiz olunan otaqlarda təhlükəsizlik qaydalarına riayət edilməmişdir.

Özünütəhlil hesabatında tələbələrin VR eynəyin köməyi ilə tətbiq edilən texnologiyalardan, simulyasiya və video oyunlardan yararlandığı qeyd olunsa da sahə baxışı zamanı müşahidə olunan dərslərdə təsdiqləyici məqamlara rast gəlinmədi. Bu da tədris prosesində aktiv öyrənmənin təşviqinə mənfi təsir göstərir.

### 4.7 Təhsil proqramı üzrə yeni təlim və tədris metodlarının və interaktiv öyrənməyəni təşviq etmə vəziyyəti

Universitetin “Strateji Plan”ında əks olunan 7 əsas istiqamətdən biri kimi “Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq” məqsədi təyin edilmişdir. İxtisas üzrə kadr hazırlığı prosesi zamanı yeni təlim-tədris metodları və interaktiv öyrənməni təşviq etmək məqsədilə “Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodik tövsiyələr” adlı vəsait və bukletlər hazırlanmış və əlçatanlığı təmin edilmişdir.

Sahə səfəri zamanı dərslərdə müəllimlərin tələbələrə qapalı suallar (faktların yadda saxlamasını təşviq edən tipli suallar) verdiyi müşahidə edilmişdir. O da qeyd olunmalıdır ki, interaktiv öyrənmə dialoji ünsiyyəti tələb edir ki, müşahidə olunan məşğələlərdə dialoji ünsiyyət qeydə alınmamışdır. Müəllimlər tərəfindən tətbiq edilən texnoloji vasitələr proyektor və elektron təqdimatlar ilə məhdudlaşır, proyektor vasitəsilə nümayiş olunan material daha çox vizuallığın təmin edilməsinə xidmət edir və iştirakı zəif olan, arxa sıralarda əyləşən tələbələrin prosesə daha fəal cəlb olunmasına səmərəli təsir etmirdi.

Yuxarıda qeyd olunmuş metodiki tövsiyələrin səmərəliliyinin Keyfiyyət təminatı mərkəzi tərəfindən dəyərləndirilməsi və tədris prosesinin 30.01.2023 tarixdə GDU-nun rektoru tərəfindən 5/20 saylı əmrilə təsdiq olunan “Təlim və tədris siyasəti” sənədində qeyd olunan prinsiplər üzərində qurulması üçün Pedaqoji fakültədə dəstəkləyici xarakterli uzun-müddətli tədbirlər planın hazırlamasına ehtiyac vardır.

**4.8 Təhsil proqramı üzrə tədris metod və üsullarının dövrü olaraq moninorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Özünütəhlil hesabatında qeyd edildiyi kimi, ATM-də təşkil edilmiş Monitorinq Qrupu dərsləri dinləyərək, müəllimlərin tədris metod və üsullarının monitorinqini aparır, dərsin sonunda fənn müəlliminin və kafedra müdirinin iştirakı ilə müzakirə edilərək qiymətləndirmə aparılır. Qiymətləndirmə aparıldıqdan sonra gələcəkdə dərsdə istifadə olunan tədris metod və üsullarının təkmilləşdirilməsi haqqında təklif və tövsiyələr verilir. Proses haqqında məlumatlar Monitorinq Qrupunun hazırladığı protokolda qeyd olunur və rəhbərliyə təqdim edilir. Lakin sahə səfəri zamanı bu protokolların mövcudluğu və ümumiyyətlə prosesin necə aparılmasına dair təsdiqedici sənəd təqdim edilməmiş, bu səbəbdən işin səmərəli olduğunu müəyyən etmək mümkün olmamışdır.

Pedaqoji fakültədə tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi üçün xüsusi fəaliyyət planı hazırlanmalıdır. Bu prosesdə fakültə rəhbərliyinin kafedralar və Keyfiyyət təminatı mərkəzi ilə əlaqəli şəkildə fəaliyyətini qurması məqsədəmüvafiqdir.

## 5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları

### 5.1 Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ATM-də tədrisin elektron idarəetmə sisteminin yaradılması üçün “Ultra” MMC ilə əməkdaşlıq müqaviləsi imzalanaraq “Eduman” (bax: www.eduman.gdu.edu.az) proqram təminatı alınmış və 2024-cü ilin yaz semestrindən etibarən Pilot Layihə kimi qəbul edilmiş ixtisaslarda tam olaraq, digər ixtisaslarda isə qismən tətbiqinə başlanılmışdır. Növbəti tədris ilindən etibarən “Yazılı və test imtahan modulu”nun və “Elektron sənəd dövriyyəsi modulu”nun alınaraq tətbiq edilməsi üçün sənədləşmə işlərinə başlanılması nəzərdə tutulur.

Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi səfər müddətində tətbiq olunmamışdır. Lakin 2024-2025-ci tədris ilindən başlayaraq bütün ixtisas proqramlarında, o cümlədən “İbtidai sinif müəllimliyi” proqramında tətbiq edilməsinin planlaşdırıldığı qeyd olunmuşdur.

### 5.2 Təhsil proqramı üzrə müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Təqdim edilən Özünütəhlil hesabatında “İbtidai sinif müəllimliyi” ixtisası üzrə müasir təlim prosesinin təşkili məqsədilə 2023-2024-cü tədris ilində kompüter, proyektor və ağıllı lövhə ilə təchiz olunmuş 8 auditoriyanın olduğu qeyd edilsə də, yerində baxış zamanı 7 auditoriyada kompüter və proyektor olduğu müəyyən edilmiş, auditoriyalarda ağıllı lövhələrə rast gəlinməmişdir.

Özünütəhlil hesabatında qeyd edilən VR eynəkləri universitetin “İbtidai sinif müəllimliyi” ixtisasının yerləşmədiyi digər (V tədris binası) tədris binasındakı E-öyrənmə mərkəzi (8 ədəd) və STEAM laboratoriyasında (2 ədəd) mövcud idi.

| Avadanlığın adı | Sayı |
|---|---|
| Kompüter | 7 |
| Proyektor | 7 |
| Proyektor pərdəsi | 7 |
| Ağıllı lövhə | 0 |
| VR eynəkləri | 10 |

*Cədvəl 2: Proqram üzrə avadanlıqların sayı*

**5.3 Təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti**

"Eduman" (www.eduman.gdu.edu.az) proqram təminatı vasitəsilə tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və elektron jurnalın 2024/2025-ci tədris ilindən etibarən tətbiqinin nəzərdə tutulduğu qeyd edilmişdir. Səfər müddətində müşahidə aparılmış dərslərdə kağız jurnallardan istifadə olunduğu qeydə alınmışdır.

**5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

Sahə baxışı zamanı tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramına uyğunluğunun qənaətbəxş olmadığı müəyyən edilmişdir. Tədris prosesində rəqəmsal xidmətlərdən istifadə edilmir. Texniki təminatın təhsil proqramlarına uyğunluğuna gəldikdə isə bütün auditoriyaların interaktiv lövhələrlə, proyektorlarla təmin edilməsi hədəf kimi göstərilsə də, avadanlıqlarla təmin olunmuş auditoriya sayı ümumi auditoriya sayına nisbətdə çox azlıq təşkil edir. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazasına, axtarış sistemlərinə çıxışı təmin edilməmişdir.

Tələbələrdə İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəltmək məqsədilə "STEAM Laboratoriyaları" yaradılmışdır. Qeyd olunmuşdur ki, laboratoriya 1 ay əvvəl istifadəyə verilmişdir. Səfər zamanı həmin laboratoriyada tələblərin məşğul olması qeydə alınmamışdır. Tələbələrlə aparılmış şifahi sorğuda laboratoriyalardan istifadə etdikləri qeyd olunmuşdur.

**5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti**

Özünütəhlil hesabatında fakültədə akademik, inzibati və tədris otaqları da daxil olmaqla, ümumilikdə yüksəksürətli internetə çıxışı olan 30-dan artıq kompüter və internetə çıxışı olmayan hər biri 10 kompüterdən ibarət iki laboratoriyanın mövcud olduğu qeyd edilir. Yerində baxış zamanı universitetin "İbtidai sinif müəllimliyi" ixtisası yerləşən tədris binasında hər birinin ayrılıqda internetə çıxışı olmayan 8, 12, 9 kompüterlə təchiz edilən 3 laboratoriya olduğu müəyyən edildi.

ATM-in tədris prosesinə dəstəyinin artırılması məqsədi ilə rəqəmsal xidmətlərin və texniki təminatın keyfiyyətinin təkmilləşdirilməsi tövsiyə olunur.

**5.6 Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu**

Özünütəhlil hesabatında ibtidai sinif müəllimliyi proqramı üzrə auditoriya fondunun 1095,1 kv.m., bir tələbəyə düşən faydalı sahənin 3,17 kv.m. olduğu və dərslərin iki növbəli təşkili ilə fondun tələbə sayına uyğunluğu təmin edildiyi qeyd edilsə də, müşahidə zamanı mövcud auditoriyaların tələbələr üçün uyğun olmadığı müəyyən edildi. Belə ki, mühazirə üçün nəzərdə tutulmuş auditoriyalar uzun dördbucaqlı formasında olduğundan arxa sıralarda əyləşən tələbələr ön sırada baş verən proseslərdən kənarda qalır, müzakirələr ön sırada duran müəllim tərəfindən yönləndirildiyi üçün arxa partalarda əyləşən tələbələr müzakirədə iştirak edə bilmirlər, bəzi tələbələr əllərini qaldırsa da, müəllimlər onları görə bilmir. Bu kimi hallar tələbələrin öyrənmə motivasiyalarına mənfi təsir göstərməkdədir. Digər nümunə kimi texnoloji vasitələrin faydalı yerləşdirilməməsi göstərilə bilər, belə ki, praktik məşğələlər üçün nəzərdə tutulmuş sinif otaqlarının birində qurulmuş proyektor tələbələrin gözlərinin qabağında deyil, sol divara istiqamətləndirilmişdir, nəticədə arxa sıralarda əyləşən tələbələr sol divara verilən proyeksiyanı yaxşı görə bilmir və bu səbəbdən demək olar ki, prosesdən kənarda qalırdılar. Nəticə etibarı ilə, təhsil proqramı üzrə auditoriyaların məkanının və işiqlandırılmasının tələbələrin rahatlığını və öyrənmə təcrübəsini dəstəkləmək üçün yetərli olmadığı qeydə alınmışdır.

**5.7 Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası**

Özünütəhlil hesabatında 2023-2024-cü tədris ilində ixtisas hazırlığını həyata keçirmək üçün Pedaqoji fakültədə akademik və inzibati heyətin fəaliyyətini təmin edən 11 otaq fondunun mövcud olduğu qeyd edilib. Ümumi otaq fondu 305,4 kv.m. təşkil edir.




Yerində baxış zamanı akademik və inzibati heyyət üçün nəzərdə tutulmuş otaqların kursun planlaşdırılması, tədqiqat işləri, görüşlər və tələbə məsləhət saatlarının təşkili, kafedra iclasları kimi fəaliyyətlər üçün kifayət qədər geniş olmadığı müşahidə edildi.

**5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) təhsil proqramı üzrə tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası**

Universitet üzrə kitabxana fondunun ümumi sahəsi 1518,8 $m^2$ və hər bir tələbəyə düşən faydalı sahə 4,4 $m^2$-dir. İbtidai sinif müəllimliyi proqramının mövcud olduğu tədris binasında elektron kitabxana mövcud deyil, bilavasitə kitabxana mövcuddur. İxtisasın yerləşdiyi binada mövcud olan kitabxana yetəri qədər geniş deyil. Bu, tələbələrin kitabxana xidmətlərindən tam istifadə etməsinə və səmərəli işləməsinə müəyyən maneə törədir. Tələbələr elektron kitabxanadan istifadə etmək üçün digər (V) tədris binasına getməli olurlar. Bu, kitabxana xidmətlərindən istifadədə bərabərlik prinsipini poza, kitabxana xidmətlərindən tam yararlanmağın qarşısını ala və ya çətinləşdirə bilər. Bu hal tələbə məmnuniyyətinə mənfi təsir göstərə bilər. Kitabxananın 2023-2024-cü tədris ili üçün ümumi fondu 8874 çap, 526 elektron kitab təşkil edir. Universitetdə ümumilikdə elektron kitabxanadan istifadə üçün 23 kompüter mövcuddur. Kompüter sayı tələbə sayına nisbətdə azdır.

Kitabxananın (elektron və bilavasitə) ümumi fondu, tələbələrin və akademik heyətinin sayı illər üzrə aşağıdakı cədvəldə təqdim edilmişdir:

| **Tədris illəri** | **Kitabxana fondu** | | **Tələbə sayı** | | **Akademik heyət** |
|---|---|---|---|---|---|
| | çap | elektron | bakalavr | magistr | |
| 2019/2020 | 5074 | 123 | 200 | 20 | 26 |
| 2020/2021 | 5644 | 294 | 229 | 16 | 26 |
| 2021/2022 | 6474 | 356 | 256 | 16 | 26 |
| 2022/2023 | 7744 | 426 | 293 | 19 | 25 |
| 2023/2024 | 8874 | 526 | 323 | 22 | 24 |

*Cədvəl 3: Kitabxananın ümumi fondu, tələbələrin və akademik heyətinin sayı*

Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramı üzrə tələbə sayına nisbəti: 2019/2020-ci tədris ilində 23, 2020/2021-ci ildə 24, 2021/2022-ci ildə 25, 2022/2023-cü ildə 26, 2023/2024-cü ildə isə 27 kitab təşkil edir. Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramı üzrə akademik heyət sayına nisbəti: 2019/2020-ci tədris ilində 200, 2020/2021-ci ildə 228, 2021/2022-ci ildə 263, 2022/2023-cü ildə 327, 2023/2024-cü ildə isə 392 kitab təşkil edir. Qeyd edilənlərdən görünür ki, son beş ildə kitabxananın xidmət imkanlarının artımında müsbət dinamika müşahidə edilir.




*Qrafik 6: Son beş ildə kitabxananın xidmət imkanlarının artım dinamikası*

Mövcud çap kitab fondu tələbə sayına görə uyğundur. Tövsiyə olunur ki, ingilis, türk və başqa dillərdə kitablar almaqla kitabxana fondu zənginləşdirilsin və elektron kitabxananın təkmilləşdirilməsi istiqamətində planlı işlər aparılsın.

**5.9 Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**

Özünütəhlil hesabatında ixtisas proqramı üzrə kitabxana fonduna daxil olan (2023-2024-cü tədris ili üzrə) son beş ildə nəşr olunmuş 16 kitaba baxış keçirildi. Özünütəhlil hesabatında cari tədris ilində kitabxana fonduna daxil olan son beş ildə nəşr olunan kitabların sayının az olması səbəbi kimi hesabatın tədris ilinin əvvəlində təqdim edilməsi göstərilib. Yerində baxış tədris ilinin sonuna doğru həyata keçirilsə də kitab sayında artım müşahidə edilmədi. İxtisas proqramı üzrə kitabxana fonduna aid olan göstəricilərin ümumi kitab fonduna nisbətinin aşağı olduğu görülür:




Bundan başqa təqdim olunmuş qrafikdən belə aydın olur ki, ixtisas üzrə elektron kitab fondunun sayı, kitabxananın ümumi elektron kitab fondunun sayı ilə eynilik təşkil edir.



## 5.10 Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Yerində baxış zamanı Özünütəhlil Hesabatında təqdim edilmiş tədris dilinə uyğun kitab fondunun (elektron və çap şəklində) sayının yanlış qeyd olunduğu müəyyən edilmişdir. Yenidən təqdim olunan siyahı aşağıdakı kimidir:

| Tədris illəri | Azərbaycan dili | | | Rus dili | | |
|---|---|---|---|---|---|---|
| | çap | | | çap | | elektron |
| | adda | nüsxə | elektron | adda | nüsxə | |
| 2019/2020 | 262 | 5716 | 123 | 122 | 2030 | |
| 2020/2021 | 303 | 5972 | 294 | 126 | 2039 | |
| 2021/2022 | 310 | 6032 | 356 | 126 | 2039 | |
| 2022/2023 | 318 | 6146 | 426 | 127 | 2040 | |
| 2023/2024 | 339 | 6305 | 526 | 128 | 2043 | |

*Cədvəl 4: Təhsil proqramı üzrə tədris dilinə uyğun kitab fondunun (elektron və çap şəklində) sayı*

İxtisas proqramı üzrə rus dili bölməsinə sonuncu dəfə qəbul 2015/2016-cı tədris ilində aparılmış və həmin ixtisasdan buraxılış 2019/2020-ci tədris ilində olmuşdur. Bununla da ixtisas proqramının rus dili bölməsinə qəbul dayandırılmışdır. Bu səbəbdən tədris dillərinə uyğun rus və digər xarici dillərdə kitab fondunda artım dinamikası müşahidə olunmur.







*Qrafik 7: Rus və Azərbaycan dillərində kitab fondunda artım dinamikası*

**5.11 Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası**

Təqdim edilən Özünütəhlil Hesabatında qeyd olunub ki, universitet üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün hesabat dövründə ayrılan vəsait 66850 AZN təşkil edir və ayrılmış vəsaitdən hesabat dövründə 40350 AZN (60%) xərclənmişdir ki, bunun da 7900 manatı (19.6%) ixtisas proqramı üzrədir.

ATM-in Özünütəhlil Hesabatında təqdim edilən vəsaitin həcmi və illər üzrə artım dinamikası yerində baxış zamanı təqdim edilən qaimələrdəki vəsaitlə eynilik təşkil etmir. Sahə baxışı zaman müəyyən edilmiş ixtisas proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin həcmində olan dinamikanı aşağıdakı cədvəldə və diaqramda görmək mümkündür.

| İllər | Xərclənən vəsaitin həcmi (AZN) |
|---|---|
| 2019-cu il | 4000 |
| 2020-ci il | 400 |
| 2021-ci il | 4000 |
| 2022-ci il | 0 |
| 2023-cü il | 2500 |

*Cədvəl 5: İxtisas proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin həcmi*




*Diaqram 1: İxtisas proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin həcmi*

Qaimələrə əsasən elmi ədəbiyyat və dərsliklər üçün xərclənən vəsait 2019-cu il üçün 4000 manat, 2020-ci il üçün 400 manat, 2021- ci il üçün 4000 manat, 2023-cü il üçün 2500 manat təşkil edir. Son beş ildə Özünütəhlil hesabatında qeyd edildiyi kimi "İbtidai sinif müəllimliyi" proqramı üzrə dərslik və elmi ədəbiyyata xərclənən vəsaitin həcmi 7900 azn deyil, 10900 azn təşkil edir. Eyni zamanda vəsaitin ən böyük həcmi pandemiyaya təsadüf edən 2019-2020-ci tədris ilində və 2021-2022-ci tədris illərində xərclənmişdir. Bu halları nəzərə alaraq kitabxana fondunun xərcləri üzərində nəzarətin gücləndirilməsi tövsiyə olunur.

**5.12 Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyətiilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

Təqdim edilən Özünütəhlil Hesabatında ixtisas üzrə hər tədris ilinin sonunda rektorun 30.12.2022-ci il tarixli 5/469 saylı əmri ilə yaradılmış "Yoxlama Komissiyası" tərəfindən təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin aparıldığı, yoxlama zamanı aşkar edilmiş neqativ hallar, çatışmazlıqlar və təkliflərin aktlaşdırıldığı, elm və innovasiyalar üzrə prorektorluğa təqdim edildiyi qeyd edilir. Yerində baxış zamanı "Yoxlama Komissiyası"nın fəaliyyətini əks etdirən sənədlərə (aktlara, fəaliyyət planlarına, gələcəkdə icrası nəzərdə tutulan işlərlə bağlı rəsmi təqdimata və ya hər hansı rəsmi sənədə) rast gəlinmədi. Akkrediyasiya Komissiyasına iki akt təqdim olunmuşdur. Bu aktlarda kitabxana oxucularının itirdiyi kitabların siyahısı, itirilən kitablara görə dəymiş maddi dəyərin əvəzinə götürülən kitabların siyahısı əks olunmuşdur.

Yaradılmış "Yoxlama komissiyası" tərəfindən təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin aparılması, neqativ halların aşkar edilməsi, çatışmazlıqların və təkliflərin aktlaşdırılması istiqamətində işlərin gücləndirilməsi və nəzarətdə saxlanılması Pedaqoji fakültədə prioritet istiqamət kimi müəyyən edilməlidir. Bundan əlavə, təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsi və yenilənməsi məsələlərinə dair kafedralarda xüsusi komissiyaların yaradılması, həmin komissiyalar tərəfindən monitorinqlərin aparılması, kafedra iclaslarında və fakültə elmi şurasında müzakirə edilməsi məqsədəmüvafiq hesab edilir.

**5.13 Təhsil proqramı üzrə təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında ibtidai sinif müəllimliyi ixtisası üzrə hər tədris ilinin sonunda GDU-nun Elmi Şurasının 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət təminatı və qiymətləndirmə Komissiyasının Əsasnaməsi"nə əsasən təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğunun Komissiya tərəfindən monitorinq edildiyi qeyd edilib. Yerində baxış zamanı "Keyfiyyət təminatı və qiymətləndirmə Komissiyasının Əsasnaməsi" təqdim edildi. Lakin əsasnaməyə uyğun olaraq, komissiyanın yoxlamasının cari ilin iyul ayında

aparılması nəzərə tutulduğuna görə, aparılan işlərin səmərəliliyi haqqında rəyin formalaşması mümkün olmamışdır.

Təlim və tədris resurslarının təhsilalanlar üçün əlçatanlığının təmin edilməsi məqsədilə Pedaqoji fakültənin veb səhifəsinə mühazirələr yerləşdirilmiş, tələbələr səhifəyə daxil olaraq "Mühazirə" bölməsindən yararlana bilirlər (bax: https://pedf.gdu.edu.az/?page_id=420 ).

**5.14 Təhsil proqramı üzrə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Universitetdə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün "Əlilliyi olan şəxslər üçün Mərkəz" yaradılmışdır. Mərkəz layihə çərçivəsində 25 min Avro dəyərində Avropa və Amerika Birləşmiş Ştatlarının istehsalı olan tədris resursları (The Braille printer (Braille embosser) + Duxbury Braille translation program, Pearl + Openbook Document Reading Camera, Braille display 40 Cells - Blue Focus 40 cell, MAGIC large print keyboard, Maltron expanded keyboard, Haydi switch, Magic for windows, JAWS Screen Reader Professional Voice with DONGLE key, audio-vizual tədris materialları, brayl əlifbası ilə çap edilmiş bəzi dərsliklər, "Qurani Kərim" və s.) ilə təchiz olunmuşdur. Mərkəzin yerləşdiyi korpus əsaslı təmir edilmişdir. Binada sağlamlıq imkanları məhdud şəxslərin hərəkəti üçün şərait yaradılmışdır: binaya daxil olmaq üçün pandusla təmin edilmiş xüsusi giriş yaradılmış, binada yerləşən kitabxanadan, tələbə yeməkxanasından, sanitar qovşaqlardan istifadə üçün bütün şərait və lazımi infrastrukturla təchiz edilib. Lakin, təhsil proqramının tələbələri həmin korpusda təhsil almadıqları səbəbindən yaradılmış şəraitdən yararlana bilmirlər. Baxış zamanı keçirilmiş müsahibələr əsnasında müəyyən olunmuşdur ki, cari tədris ilində təhsil proqramında təhsil alan tələbələr arasında sağlamlıq imkanları məhdud olan tələbələr yoxdur və ixtisas proqramı üzrə uyğunlaşdırılmış tədris resurslarına rast gəlinmədi.

**5.15 Təhsil proqramı üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Özünütəhlil Hesabatında "İbtidai sinif müəllimliyi" ixtisas üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi məqsədilə hər semestrin əvvəlində maraqlı tərəflərin iştirakı ilə kafedralarda təşkil edilmiş iclaslarda müzakirələr aparıldığı qeyd edilib, lakin yerində baxış zamanı bununla bağlı sənədlərə rast gəlinmədi.

Universitetin kitabxanasında keçirilmiş baxış zamanı son 5 il ərzində alınmış ədəbiyyata dair rəsmi qaimələr təqdim olunmamışdır, bu fakt özününtəhlil hesabatında qeyd olunan yeni dərsliklərin alınması ilə bağlı nəzarət mexanizmin olmamasına işarə edir. Təqdim olunan qaimələrdə qeyd olunmuş ədəbiyyatın adı keçmir. Belə ki, Özünütəhlil Hesabatında qeyd olunmuş yeni dərsliklərin yalnız şəkilləri təqdim olunmuş, şəkilləri təqdim olunan 16 kitabdan yalnız iki kitabın adı ("İntibah dövrünün incəsənəti" və "Gəncə abidələri") təqdim olunan qaimələrdə öz əksini tapmışdır. Kitabxanada yer alan elektron resurslar "pdf" formatında yüklənmiş materiallardan ibarətdir.

Kitabxananın yenilənməsi, fakültə və kafedralardan daxil olan sorğular əsasında yeni vəsaitlərin alınması, tədris resurslarının artımı, eləcə də təlim və tədris resurslarının kafedralarda məzmunlarının müzakirə olunaraq təkmilləşdirilməsi məqsədəuyğun olardı. Təlim və tədris resurslarının məzmun baxımından ibtidai təhsil pilləsində tədris olunan fənlərin tədrisi metodikalarının təhlilinə şərait yaradan və əmək bazarının ehtiyaclarına cavab verən resurslar ilə təmin olunmalı, məzmununda əsaslı dəyişiklik tələb olunan təlim və tədris resurslarının yenidən işlənib hazırlanması üçün fakültədə davamlı işlər aparılmalıdır. Kitabxanada yeni tədris resursların alınması, auditoriyaların müasir tələblərə cavab verən kompüterlər, ağıllı lövhələr, proyektorlar və s. müvafiq avadanlıqlarla təmin edilməsi tövsiyə olunur.

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

### 6.1 Təhsil proqramı üzrə tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

İxtisas hazırlığı həyata keçirilən Pedaqoji fakültədə tədris otaqları müasir tələbələrə cavab vermir. Auditoriyalarda interaktivliyi təmin etmək çətindir. Partaların düzülüşündə sıxlıq müşahidə olunur. Xüsusilə elektrik təchizatları ilə əlaqəli təhlükəsizlik qaydaları gözlənilmir. Auditoriya zallarının günəş şüalarından qorunması üçün pəncərələrdə jalüzlərin olması məqsədəmüvafiq olardı. Məşğələlərin keçirildiyi otaqlar, koridorlar, pilləkənlər, kafedra kabinetləri təmiz saxlanılır, lakin sanitar qovşaqlarınının sanitar-gigiyenik vəziyyəti qənaətbəxş deyildir.

Təmizlik və sanitar-gigiyenik qaydalara uyğunluğunun təmin edilməsinə nəzarətin gücləndirilməsi tövsiyə edilir.

### 6.2 Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyəti

Təhsil proqramı təşkil olunan korpusda olan kitabxana tələbə sayına görə tələb olunan normalara cavab vermir. Oxu zalında 6 noutbuk möcuddur. Proqram üzrə kitabxanada çap formasında 339, elektron formada isə 526 ədəbiyyat mövcuddur.

İxtisas hazırlığı aparmaq üçün kitabxana və fakültədə 24 ədəd kompüter, 7 ədəd proyektor, 7 ədəd proyektor pərdəsi, 3 ədəd skaner və 6 ədəd çoxməqsədli printer mövcuddur. Kitabxanada oxucu yerləri, informasiya məntəqəsi (ədəbiyyatın verilməsi və qəbulu sahəsi), kataloqlarla iş yeri, açıq istifadə fondları, qapalı saxlanma fondları, texniki tədris vasitələri ilə fərdi məşğələlər aparılan kabinetlər mövcuddur.

Elektron kitabxana isə ibtidai sinif müəllimliyi ixtisasının yerləşdiyi tədris binasında deyil, V tədris korpusunda yerləşir. Elektron kitabxana kompüterlərə yüklənmiş, lakin internet vasitəsilə əldə oluna bilməyən pdf formatında skan olnumuş kitablardan ibarətdir, internetə çıxış ilə təmin olunmayıb.

Tədris proqramı üzrə ədəbiyyat və təlim resurslarının təkmilləşdirilməsi məqsədilə ixtisasın yeni tendensiyaları əks etdirən və müasir elmi tədqiqatlara əsaslanan yerli və xarici ədəbiyyat və resursların əldə olunması üzrə uzun-müddətli planın hazırlanması tövsiyə olunur.

### 6.3 Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə 3 mühazirə, 12 məşğələ, 3 kompüter laboratoriyası olmaqla ümumilikdə 17 auditoriya, bir idman zalı və bir futzal meydançası mövcuddur. Tədris istiqamətlərinə görə 75-100 nəfərlik (mühazirə auditoriyaları), 25-30 nəfərlik (məşğələ auditoriyaları), 15-20 nəfərlik (laboratoriya otaqları) auditoriyalar mövcuddur. 7 (yeddi) auditoriya kompüter və proyektorla təmin edilmişdir. Kompüter laboratoriyalarında ümumilikdə internetə çıxışı olmayan 28 kompüter mövcuddur. Müasir tədris avadanlığı ilə təmin edilmiş audtoriyaların sayı ümumi auditoriyaların sayına nisbətən daha azdır.

### 6.4 Təhsil proqramı üzrə tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə 3 kompüter laboratoriyası, 2 anatomiya laboratoriyası, 4 tikiş texnologiyası laboratoriyası, 6 rəsm və rəngkarlıq laboratoriyası, 2 musiqi laboratoriyası, 1 STEAM laboratoriyası fəaliyyət göstərir. Bundan əlavə 1 açıq tipli basketbol meydançası, 1 açıq tipli voleybol meydançası, 1 idman zalı, 1 futzal meydançası, 1 fitnes zalı, baza məktəblərində yerləşən 2 təcrübə və karyera mərkəzi mövcuddur.

Səfər zamanı ibtidai sinif müəllimliyi ixtisasının yerləşdiyi tədris binasında 3 kompüter laboratoriyasında, 4 tikiş texnologiyası laboratoriyasında, 6 rəsm və rəngkarlıq laboratoriyasında, musiqi laboratoriyasında və digər tədris binasında (V tədris binasında) yerləşən anatomiya laboratoriyasında və STEAM laboratoriyasına baxış keçirildi. 4 tikiş texnologiyası laboratoriyasından biri eyni zamanda fizika laboratoriyası kimi istifadə edilir. Tikiş laboratoriyasının birində "Avtomatikanın əsasları" dərsi tədris olunur. Bu səbəbdən həmin laboratoriya bu dərsə aid avadanlıqlarla da təchiz olumuşdur.

**6.5 Təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti**

Gəncə şəhəri 4 saylı və 39 saylı tam orta məktəbləri "İbtidai sinif müəllimliyi" proqramı üzrə GDU-nun baza məktəbləridir. Eyni zamanda 4 saylı, 25 saylı, 28 saylı, 30 saylı və 39 saylı tam orta məktəblərdə proqram üzrə tələbələrin istehsalat-təcrübəsi təşkil edilir.

Sahə səfəri zamanı baza məktəbləri və istehsalat-təcrübə təşkil edilən məktəblərin nümayəndələri ilə (direktor müavinləri və psixoloq) görüş keçirilmişdir. İxtisas kafedra nümayəndələri və tələbələr həmin məktəblərdə istehsalat-təcrübəsinin təşkili vəziyyəti ilə bağlı qənaətbəxş fikirdə olduqlarını qeyd etdilər.

**6.6 Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti**

Universitet əməkdaşları və tələbələri ehtiyac yarandığı halda bəzi məsləhət saatları üçün Microsoft Teams proqram təminatından istifadə edir. Bütün professor-müəllim və tələbə heyəti üçün universitetin domen ünvanına (www.gdu.edu.az) uyğun olaraq korporativ e-mail ünvanları yaradılıb və istifadəyə verilib. Yerində baxış zamanı müasir avadanlıqlarla təchiz edilmiş V tədris binasında yerləşən Müasir Təlim Mərkəzi və E-öyrənmə Mərkəzinin şəraiti ilə tanış olundu.

İxtisas proqramı üzrə professor-müəllim və tələbələr üçün distant təlimlərin keçirilməsi məqsədilə xüsusi avadanlıqlar təmin edilir. Lakin həmin avadanlıqların təminatı üzrə istifadəsinin səmərəliliyini dəyərləndirmək mümkün olmamışdır. Çünki fakültənin və kafedraların fəaliyyət planlarında həmin avadanlıqlarla təchiz olunmuş şəraitdə təlimlərin, təcrübə mübadiləsinin və ya hər hansı tədbirin keçirilməsinin planlaşdırıldığı qeydə alınmamışdır.

**6.7 Təhsil proqramı üzrə tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti**

Sahə səfəri zamanı məlum oldu ki, təhsil proqramı üzrə tədris infrastrukturu professor-müəllim heyəti tərəfindən tədris prosesinin səmərəli təşkili üçün uyğun deyil.

Baxış zamanı müəyyən edilmişdir ki, auditoriyalar, məşğələ otaqları, laboratoriyalar, emalatxanalar, yataqxana, yeməkxana, kitabxana, oxu zalları, açıq və qapalı idman zalları, fitnes mərkəzi və s. kimi infrastruktur xidmətləri və onların daxilində yerləşən avadanlıqlar tələbələrin istifadəsi üçün əlçatandır.

**6.8 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti**

Sahə səfəri zamanı sağlamlıq imkanları məhdud şəxslər üçün fəaliyyət göstərən "Əlilliyi olan şəxslər üçün Mərkəz"ə baxış keçirildi. Mərkəz sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün lazımi avadanlıqlarla təchiz olunub. Müsahibə zamanı bildirildi ki, halhazırda təhsil proqramında sağlamlıq imkanları məhdud şəxslər təhsil almır.

**6.9 Təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti**

Yerində baxış zamanı "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təlim və tədris resurslarının monitorinqinin aparılması və müvafiq təkliflərin verilməsi ilə bağlı yoxlama komissiyasının yaradılması ilə bağlı rektorun əmri təqdim olunmuşdur. Verilən şifahi izahlara görə, ixtisas proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqini fakültə dekanı, müvafiq struktur bölmə rəhbəri və İnzibati təsərrüfat işləri üzrə prorektorluq tərəfindən yaradılmış işçi qrupu qiymətləndirir və müvafiq bölmələrə hesabatları təqdim edir. Lakin bu fəaliyyətlə bağlı təsdiqləyici sənədlər (fəaliyyət planları, hesabatlar və digər) təqdim olunmamışdır.

ATM-in rəhbərliyi tərəfindən qeyd olunmuşdur ki, 2024-cü ilin sentyabr ayından başlayaraq, təhsil proqramının tədrisinin həyata keçirilidiyi binada əsaslı təmir işlərinin aparılması planlaşdırılır.

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 7.1 Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ETN-nin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmrlə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”nin tələblərinə, "GDU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları”na uyğun prosedur qaydalarla tənzimlənir. Bu qiymətləndirilmə qaydaları və prosedurların həyata keçirilməsi proseslərinə dair hazırlıq məsələləri universitet fakültə şuralarında müzakirə olunmuş və müvafiq sənədləşmə aparılmışdır.

“İbtidai sinif müəllimliyi” proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar Gəncə Dövlət Universiteti tərəfindən tərtib edilən “Ali təhsildə qiymətləndirmə konsepsiyasında” öz əksini tapmışdır. Bu konsepsiyanın əsasını kredit sistemi təşkil edir. Avropa Kredit Transfer Sistemi (AKTS) tələbələrin iş yükünün idarə edilməsini və proqramın beynəlxalq tanınmasını asanlaşdırır. Bundan əlavə, şəffaflığı təmin etmək üçün "müvəffəqiyyətlə təhsil alan tələbə" və "Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)" kimi terminlər üçün aydın təriflər verilir. Eyni zamanda, sənəddə cari və aralıq qiymətləndirmələr də daxil olmaqla müxtəlif qiymətləndirmə növləri izah olunur. Həmçinin buraxılış işinin müdafiəsi və yekun müdafiənin rolu göstərilir.

Bu konsepsiya sənədi təhsil proqramı çərçivəsində qiymətləndirmə qaydaları və prosedurları üçün istinad xarakterinə malik olub tələbə bilik və bacarıqlarının qiymətləndirilməsinə standartlaşdırılmış yanaşmanı təmin edir.

### 7.2 Təhsil proqramı üzrə qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Təhsil proqramı üzrə qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olmasının müəyyənləşməsi “GDU üzrə ali təhsil sistemində qiymətləndirmə konsepsiyası” əsasında tənzimlənir.

Konsepsiya sənədinə əsasən, universitet tərəfindən qiymətləndirmə məqsədləri ölçülə bilən xüsusiyyətləri hədəfləmək üçün diqqətlə seçilir. Təhsilalanların nailiyyətləri onların təhsil sahəsi üzrə konkret tapşırıqlardakı göstəricisinə əsasən qiymətləndirilir. Bundan əlavə, qiymətləndirmə standartları proqramın həyata keçirilməsi ilə əldə edilən öyrənmə dərəcəsini müəyyən etmək üçün istifadə olunur. Bu standartlar təlim prosesində əldə edilən irəliləyişlərin ölçülməsi üçün əsas götürülür. Konsepsiyada universitetin ölçülə bilən meyarlara diqqət yetirildiyi vurğulansa da, etibarlılığa nail olmaq üçün ölçülə bilən meyarların eyni fənni tədris edən təhsilverənlər arasında ardıcıllığı necə təmin etdiyi açıq şəkildə göstərilmir.

Müsahibələrdə təhsilverənlər tədris prosesində beyin həmləsi, cütlərlə iş, sərbəst işlər, Kahoot kimi oyun əsaslı öyrənmə platformalarından istifadə etdiklərini qeyd ediblər. Lakin bu metodların istifadəsi ilə tədris edilən biliklərin ənənəvi üsullarla xüsusilə də test imtahanı ilə qiymətləndirilməsi qiymətləndirmə meyarlarının ölçüləbilənliyi haqqında sual yaradır. Qiymətləndirmə meyarları düşündürücü suallara fokuslanaraq, tələbələrin yaradıcı və tənqidi bacarıqlarını nümayiş etdirmələrinə imkan yaratmalıdır.

### 7.3 Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Təhsil proqramı üzrə məşğələlərdə biliyin cari qiymətləndirilməsində müxtəlif forma, metod və vasitələrdən çox cüzi fərqliliklə istifadə edilir.

Təhsilalanların biliyinin aralıq qiymətləndirilməsi zamanı yazılı, kompüter vasitəsilə test, şifahi, qabiliyyət, təcrübəyə dair hesabat, yekun dövlət attestasiyası zamanı buraxılış işinin müdafiəsi, fənlərarası yekun dövlət imtahanı üsullardan istifadə edilir.

Sahə baxışı zamanı məlum oldu ki, müəllimlər əsasən ənənəvi metodlarla qiymətləndirməyə üstünlük verirlər. Müəllimlərin sillabuslarında qeyd olunmuş tapşırıqların yoxlamasına dair meyarlar rubriklərinə və məsafədən aparılan qiymətləndirmə üsulları haqqında heç bir məlumata rast gəlinmədi.

Gələcəkdə Covid-19-a bənzər pandemiyaların baş vermə ehtimalını, sağlamlıq imkanları məhdud olan tələbələrin sayının artması və digər bənzər ehtimalları nəzərə alaraq, universitetə uzaq məsafədən tətbiq edilə biləcək qiymətləndirmə üsullarının (imtahanlar daxil) hazırlanması tövsiyə olunur.

## 7.4 Təhsil proqramı üzrə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Təhsil proqramı üzrə təhsilalanların biliyinin aralıq qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və tələbənin qiymətinin əsaslandırılması məqsədilə "İmtahan mərkəzi", "Apellyasiya komissiyası", "İctimai nəzarət şurası", "İmtahanların keçirilməsi üçün nəzarət qrupu", "İmtahan qərargahı", kafedralarda imtahan suallarının hazırlanmasına nəzarət etmək üçün "Ekspert komissiyaları" və s. yaradılmışdır.

ATM-nin "Ali təhsildə qiymətləndirmə konsepsiyasında" şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və qiymətləndirmədə əməkdaşlıq haqqında məlumat verilir. Sənəd məlumatların toplanmasında şəffaflığı, qiymətləndirmə meyarlarını və təhsilverənlərin peşəkarlığını vurğulayır. Bu şəffaflıq tələbələr arasında inam və anlayışı gücləndirə bilər. Lakin, sənəddə şəffaflıq haqqında məsələlər qeyd olunsa da, onun praktikada necə tətbiq edildiyinə dair nümunələr təqdim edilmir.

Bundan əlavə, universitetin qiymətləndirmələrdə təhsilverənlər tərəfindən edilə biləcək subyektivliyini necə minimuma endirdiyi açıq şəkildə göstərilmir. Aydın təlimatlar olmadan yalnız təhsilverənin mühakiməsinə etibar etmək qərəzə səbəb ola bilər.

Sənəd obyektiv qiymətləndirməni vurğulasa da, müəllimlərin təhsilalanların qiymətləndirmələrinin nəticələrini necə əsaslandırdığına dair ətraflı məlumat verilmir. Əvvəlcədən müəyyən edilmiş meyarlara əsaslanan aydın əsaslandırma tələbələrə faydalı rəy vermək və qiymətləndirmə prosesinə inamı artırmaq üçün çox vacibdir.

Bundan əlavə, universitet aydın qiymətləndirmə vasitələrinin istifadəsini vurğulayır. Bu vasitələr konkret məqsədləri və meyarları müəyyən edir, onların işlərinin necə qiymətləndiriləcəyi barədə tələbələri məlumatlandırır. Bu şəffaflıq tələbələrə gözləntiləri daha yaxşı başa düşməyə və öyrənmə məqsədlərinə nail olmağa imkan verir. Sənəddə yazılı, şifahi, test, yaradıcılıq tələb edən ixtisaslarda isə qabiliyyət üsulları daxil olmaqla müxtəlif qiymətləndirmə metodlarından istifadə edildiyi və onların müxtəlif öyrənmə üslublarına və proqram ixtisaslarına uyğun olduğu iddia olunur. Lakin bu sənəddə yaradıcılıq tələb edən ixtisaslarda qabiliyyət üsulları haqqında təlimatlar ətraflı qeyd edilməyib və təhsilverənin subyektivliyinin necə aradan qaldırıldığı haqqında məlumat yoxdur.

Qiymətləndirmənin ədalətliliyinin, obyektivliliyinin dəyərləndirilməsi, şəffaflığının təmin olunması üçün və qiymətin təshilverənlər tərəfindən əsaslandırılmasını təşviq etmək

məqsədilə təshil proqramında konkret müddət üzrə fəaliyyət planının olması və fənn sillabuslarında bu prinsiplərin əks olunması məqsədəmüvafiq hesab edilir.

### 7.5 Təhsil proqramı üzrə qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

ATM-nin "Ali təhsildə qiymətləndirmə konsepsiyası"na təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər sırasına təhsilalanların özünüqiymətləndirmə imkanlarının olmadığı daxil edilib. Sənəddə qeyd edilir ki, mövcud qiymətləndirmə üsulları yalnız formal biliklərin qiymətləndirilməsində effektiv olsa da, təhsilalana özünüqiymətləndirmə imkanı verilmir. Təhsilverənlərlə aparılan müsahibələrdə isə iddia edilir ki, təlim prosesində istifadə olunan beyin həmləsi, cütlərlə iş, sərbəst işlər, Kahoot kimi oyun əsaslı öyrənmə platformalarından istifadə təhsilalanlara özlərini, qrup yoldaşlarını qiymətləndirməyə və inkişaf etməyə şərait yaradır. Bu kimi tədris metodlarının səmərəli tətbiqi yüksək qiymətləndirilir, lakin səfər zamanı müşahidə olunmuş dərslərdə həmin metodların tətbiqi qeydə alınmadığından tələbələrin özünüqiymətləndirmə bacarıqları üzərində aparılan işləri dəyərləndirmək də mümkün olmadı.

ATM-nin Özünütəhlil Hesabatında fakültədə "Monitorinq və qiymətləndirmə komissiyası" yaradılmış və tələbələrin onun işinə cəlb olunması barədə məlumat verilmişdir. Səfər zamanı tələbələrlə keçirilmiş müsahibədən məlum oldu ki, qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsi ilə bağlı təklif verməsinə şərait yaradılmır.

Tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması məqsədilə məşğələlərdə tələbənin öz fəaliyyətini qiymətləndirilməsi üçün "özünüqiymətləndirmə meyarları əsasında hazırlanmış sorğu" yoxlaması, tapşırıqların və müxtəlif layihələrin qiymətləndirməsi üçün meyarların hazırlamasında müəllimlərlə birlikdə işləməsi bu bacarıqlarının inkişaf etdirməsinə şərait yaradacaqdır.

### 7.6 Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Təhsil proqramı üzrə qiymətləndirmə zamanı əsasən qapalı test üsulundan istifadə edilir. Tələbələrin imtahan cavab kartları xüsusi skaner qurğusu ilə yoxlanılır.

Aparılan müsahibələrdə 2024-cü ilin sentyabr ayından etibarən universitetdə elektron jurnalın tətbiq ediləcəyi vurğulandı. Təlim prosesində bəzi təhsilverənlər tərəfindən “Google Forms” kimi elektron vasitələrdən istifadə edildiyi qeyd edildi. Lakin bu barədə daha ətraflı məlumat olmadığından qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının geniş şəkildə istifadəsi təmin edilmir.

Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyətinin yaxşılaşdırılmasına ehtiyac duyulduğu müşahidə edildi.

### 7.7 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Təhsil proqramı üzrə tələbələr arasında sağlamlıq imkanları məhdud şəxslər təhsil almadığı səbəbindən xüsusi qiymətləndirmə üsullarından istifadə edilmir. ATM-nin “Ali təhsildə qiymətləndirmə Konsepsiyası” sağlamlıq imkanları məhdud tələbələr üçün qiymətləndirmə tapşırıqlarının müvafiq qaydada uyğunlaşdırıldığını qeyd etsə də, hansı üsullardan istifadə edildiyi məlum deyil. Müsahibələrə əsasən, sağlamlıq imkanları məhdud tələbələrə müəllimləri tərəfindən köməklik edilir, lakin bu köməklik hər hansısa bir xüsusi inklüzivliyi təmin edən qiymətləndirmə üsulu hesab edilə bilməz.

### 7.8 Təhsil proqramı üzrə cari və aralıq qiymətləndirmələrin müvafiq fənnlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Qiymətləndirmənin ədalətliliyinin, obyektivliyinin dəyərləndirilməsi, şəffaflığının təmin olunması üçün və qiymətin əsaslandırılması istiqamətində aparılan iş haqqında məlumat və sənəd təqdim olunmadı. Eyni zamanda, bu istiqamətdə prosesləri tənzimləyən monitorinqlərin aparılması və ya müzakirələr haqqında məlumat verilməmişdir.

### 7.9 Təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ATM təhsil proqramı üzrə Yekun Dövlət Attestasiyasını ARTEN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”yə uyğun təşkil edir.

**7.10 Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitetin sorğu siyasətində Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması öz əksini tapmamışdır. "Ali təhsildə qiymətləndirmə konsepsiyası" təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər sırasına qiymətləndirmə nəticələrinin təhlilinin aparılmaması və müvafiq hesabatların hazırlanmamasını daxil etmişdir.

Digər tərəfdən, həmin konsepsiya təhlillərin aparıldığını iddia edir. Sənədə əsasən, məlumatların toplanması, təhlili, nəticələri və standartlarını əhatə edən qiymətləndirmə strukturu mövcuddur. Əsas diqqət təhsilalanların inkişafını və tədrisin effektivliyini artırmaq üçün qiymətləndirmə nəticələrindən istifadə etməyə yönəlmişdir.

Keyfiyyətin təminatı mərkəzinin 2022-2023-cü illər və 2023-2024-cü illər üzrə apardığı sorğular sırasında bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılmasına rast gəlinməmişdir. Sorğular daha çox tələbə məmnuniyyətinin ölçülməsi, müəllim və professor heyəti, tyutorlar haqqında rəylərin toplanması məqsədini daşıyır.

Yuxarıda qeyd edilən sənəddə qiymətləndirmə standartları və məlumatların toplanması metodlarından bəhs edilsə də, onların effektivliyini qiymətləndirmək üçün konkret nümunələr əldə edilməmişdir. Bundan başqa, məlumatların toplanması və istifadəsi qeyd edilsə də, ATM-nin təhsil proqramının təkmilləşdirilməsi üçün qiymətləndirmə məlumatlarını necə təhlil etdiyi və istifadə etdiyi barədə də nümunələr göstərilməmişdir.

Sənəddə tələbələrin qiymətləndirmə prosesində iştirakı və ya onların rəyinin necə qəbul edilməsi barədə məlumat verilmir. Tələbələrlə müsahibələr zamanı məlum oldu ki, onların rəyi əsasən universitetin şəraiti və müəllimlərlə bağlı məsələlərdə daha çox nəzərə alınır.

Təhsil proqramında təhlilaparma və hesabatlılıq mədəniyyətinin formalaşmasına ehtiyac var. Xüsusi strukturlaşdırılmış hesabatvermə və təhlilaparma mexanizminin Keyfiyyət Təminatı Mərkəzi tərəfindən fakültə rəhbərliyi ilə birlikdə işləyib təkliflər verməsi məqsədəmüvafiq hesab edilir.

**7.11 Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi barədə daxili qaydalar və tövsiyələr hazırlanmışdır. Tələbələr üçün əlçatanlığın təmin edilməsi məqsədi ilə kitabça şəklində çap olunması və elektron versiyasının universitetin elektron səhifəsində yerləşdirilməsi müsbət hal kimi dəyərləndirilə bilər. (bax:https://gdu.edu.az/tovsiyələr/)

**7.12 Təhsil proqramı üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

Təhsil proqramı üzrə məzunlara dövlət təhsil sənədlərinin verilməsi AR NK-in müvafiq qaydalarına uyğun aparılır (bax: ARNK-nin 29.04.2010-cu il tarixli 82 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası”). İxtisas üzrə təhsil səviyyəsini uğurla bitirməyən tələbələrə arayışların AR NK-ın müvafiq qaydalarına uyğun verilməsi nəzərdə tutulur, lakin normativ müddətdən artıq təhsil alan tələbələr universitetdən xaric edilərək başqa ali təhsil müəssisəsinə bərpa edilmədiyindən və müvafiq müraciətlərin olmaması səbəbindən arayışlar verilməmişdir (bax: AR NK-nin 21.01.2010-cu il tarixli 12 saylı Qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”).

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

**8.1 Təhsil proqramı üzrə akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatının şəffaf və ictimaiyyət üçün əlçatanlığın təmin olunması vəziyyəti**

Təhsil proqramı üzrə tədrisə cəlb olunmuş professor-müəllim və inzibati heyətlə əmək müqavilələri bağlanılır və bu proses mövcud qanunvericiliyə əsasən aparılır (bax: AR Əmək Məcəlləsinin tələblərinə, AR ETN-nin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na, 07 avqust 1996-cı il tarixli 401 saylı əmrinə 1 saylı Əlavə ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”). Bundan əlavə, ATM-in Elmi Şurasının 04.10.2021-

ci il tarixli (pr. № 05) Qərarı ilə təsdiq edilmiş işə qəbul siyasəti mövcuddur və prosesi tənzimləyir. Həmin sənədlər universitetin internet səhifəsində yerləşdirilmişdir.

Sahə baxışı zamanı aparılmış görüş və müsahibələr zamanı müəyyən edildi ki, fakültə dekanı və dekan müavini öz vəzifə öhdəliklərinə kifayyət qədər məhdud yanaşır və fəaliyyətlərinin əsas məqsədinin nizam-intizama nəzarət etməkdən və təhsilalanların müxtəlif növ idmanla məşğul olmaları üçün şərait yaratmaqdan ibarət olduğunu düşünür. İxtisas proqramlarının, xüsusilə də ibtidai sinif müəllimliyi ixtisasının keyfiyyətinin idarə edilməsi, təkmilləşdirilməsi və inkişaf etdirməsi ilə bağlı fikirlərin olmaması aşkar olunmuşdur. Bu vəziyyəti Pedaqoji fakültənin 2023-2024-cü tədris ili üzrə iş planı təsdiqləyir(bax: Pedaqoji fakültənin 2023-2024-cü il üzrə İş planı). Bütün bu amillər yaxın gələcəkdə təhsil proqramının keyfiyyətli təşkilinə və inkişafına mənfi təsir göstərə bilər.

**8.2 Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti**

Təhsil proqramının təşkil edildiyi Pedaqoji fakültənin və ixtisas kafedralarının müvafiq sənədlərinə və fəaliyyət planlarına baxış keçirildikdən sonra, akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran mexanizmin olmadığı müəyyən edildi. Belə ki, Pedaqoji fakültənin 2023-2024 tədris ili üçün yaradılmış “İş planı” adlı sənəddə “Tədrisin təşkili ilə bağlı treninqlər keçirmək” kimi fəaliyyət qeyd olunmuş, lakin dekan və dekan müavini ilə müsahibə zamanı həmin treninqlərin məzmunu, saat baxımından həcmi, təlimçi qismində kimlərin cəlb olunduğu barədə suallara cavab verilmədi və fəaliyyətin həyata keçirildiyini təsdiq edən sənədlər Komissiyaya təqdim olunmadı.

İki ixtisas kafedralarından birində - “Təhsilin pedaqogikası və metodikası” kafedrasında müəllimlərin fəaliyyətinin monitorinqinin keçirilməsi iş planında qeyd olunmuş, bu fəaliyyətə dair təsdiqedici sənədlər təqdim olunmuşdur. Müəllimlərin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi üçün müəyyən mexanizmin olduğunu və meyarlara əsaslanmış qiymətləndirmənin həyata keçirildiyini təsdiq etmək olar. Lakin hər iki kafedranın müəllimləri ilə müsahibə zamanı müəyyən olundu ki, onların həmin meyarlar və meyarlar üzrə yüksək göstəricilərə nail olmağın yolları barədə məlumatları yoxdur.

Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsinin stimullaşdırılması “Motivasiya və Mükafatlandırma Siyasəti”nə əsasən həyata keçirilir ki, buna da dövlət başçısı

və ETN tərəfindən fəxri adlar, medal və döş nişanı verilməsi üçün təqdimatlar aid edilir. Pedaqoji səriştəsi ilə seçilən akademik heyətə diferensiallaşdırılmış əmək haqqı təyin edilməsi mexanizmi üzərində işlənilməsi barədə planlamalar edilməsi məqsədəmüvafiq olardı. Bu istiqamətdə effektiv işlərin aparılması üçün fakültə rəhbərliyi, kafedralar və Keyfiyyət təminatı mərkəzi ilə birgə fəaliyyət planlarının mövcud olması zəruridir.

**8.3 Təhsil proqramı üzrə akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

İxtisas üzrə akademik heyətə interaktiv və aktiv tədris metodları və distant tədris proseslərinin tətbiqi ilə bağlı sistemli təlimlərin həyata keçirilməsi vəziyyəti qənaətbəxş səviyyədə deyil, təlimlər sistemsiz təşkil olunur, fakültə rəhbərliyinin bununla bağlı aydın göstəricilərə bağlanan planı mövcud deyil. Keçirilən təlimlər isə “Eduman” platformasından istifadə bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsi məqsədi daşıyır ki, bu qısa-müddətli və çox spesifik bacarıqlar olub akademik heyətin pedaqoji səriştələrinin inkişaf etdirilməsinə mühüm təsir göstərmir.

**8.4 Təhsil proqramı üzrə akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti**

İxtisas üzrə akademik heyətə interaktiv və aktiv tədris metodları üzrə təlimlər və məsləhətlər “Təhsilin pedaqogikası və metodikası” kafedrası tərəfindən təşkil edilir. Bu faktı həm kafedranın iş planları, monitorinqlərin keçirilməsini təsdiq edən sənədlər və akademik heyətin nümayəndələri də təsdiqləyir. Distant tədrisin tətbiqi ilə bağlı təlimlər Eduman platformasından istifadə ilə bağlıdır və yeni tədris ilində ixtisas proqramında tətbiqinə hazırlanır.

Akademik heyət ilə keçirilmiş müsahibələr zamanı müəyyən edildi ki, müəllimlərin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarına cəlb olunma səviyyəsi qənaətbəxş deyil. Müəllimlərin az qismi sistemli şəkildə təlimlərdə iştirak edir, iştirak edənlər isə ATM-nin göndərişi ilə gedir. Öz təşəbbüsü ilə təlimlərə qoşulmaq və peşəkarlığın inkişafı üzərində işləmək, konkret  məqsədlə araşdırmalar aparmaq, peşəkar icmaların üzvü olmaq kimi bir fəaliyyəti haqqında məlumat verən müəllimlərə rast gəlinmədi. Komissiyanın  “Hansı peşəkar inkişaf və ixtisas artırma təlimlərinə qoşulursunuz və ya qoşulmaq istərdiniz?” sualına “Gərək

mütləq təlimlərə gedək?” cavabı verilmişdi. Bu münasibəti anlamaq üçün “Bəs peşəkar müəllim kimi formalaşmaq və inkişaf etmək məqsədilə nə edirsiniz?” sualı verilmişdi, cavab olaraq isə “internetdən öyrənirik” ifadələri qeyd edilmişdir. “Hansı internet resurslarından istifadə edilir, hansı tezliklə, tələbələrə hansı resurslar məsləhət görülür, faydası necə ölçülür və s.” kimi suallara cavab verilməmişdir. Eyni zamanda müsahibələrdə iştirak edən müəllimlər peşəkarlığın artırılması üçün ATM və ya ixtisas proqramı üzrə kitabxana resurslarına müraciət etdiklərini qeyd etmədilər.

Müəllimlərlə müsahibə və dərslərdə müşahidə zamanə təhsil proqramı üzrə akademik heyətin ixtisaslarının keyfiyyətinin artırılmasını hədəfləyən proseslərin sistemli və məqsədyönü həyata keçirilməsi qeyri-qənaətbəxş səviyyədədir.

Bu istiqamətdə müvafiq işlərin aparılması üçün ATM-in Keyfiyyət təminatı mərkəzi, fakültə rəhbərliyi və ixtisas kafedraları tərəfindən məqsədli və nəticəyönümlü uzun-müddətli planın hazırlanması və həyata keçirilməsi ən önəmli məsələlərdən biri kimi müəyyən edilməlidir.

### 8.5 Təhsil proqramı üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

İxtisas üzrə akademik heyətə interaktiv, aktiv tədris metodları və distant tədris proseslərinin tətbiqi ilə bağlı sistemli təlimlərin həyata keçirilməsi qənaətbəxş deyil və sistemsiz təşkil olunur. Bu istiqamətdə fakültənin planının mövcud olmadığı, şifahi təşəbbüslərin olduğu nəzərə çarpmışdır.

ATM tərəfindən yazılmış Özünütəhlil Hesabatında da bu fakt öz təsdiqini tapır. Əsas səbəb olaraq heyətin ingilis dili üzrə biliklərin aşağı olması kimi göstərilir.

Akademik heyətin peşəkar inkişaf proqramlarında iştirakını təşviq etməklə və onların öyrənmə motivasiyasını yüksəltməklə bağlı uzun-müddətli planın hazırlanması fakültə qarşısında duran ən önəmli vəzifələrdən biri kimi müəyyən edilməlidir.

### 8.6 Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə akademik heyətin dərs zamanı yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi məqsədi ilə ixtisas kafedraların birində monitorinq qrupu

yaradılmışdır. Monitorinqlər əsasən dərslərin izlənilməsi və meyarlara görə qiymətləndirilməsi formatında keçirilir. Bu fəaliyyətlə bağlı "Təhsilin pedaqogikası və metodikası" kafedrasının hesabatlarını təhlil etmək mümkün olmuşdur. Təhlil zamanı müəyyən oldundu ki, meyarlar heyətin yaradıcı və innovativ tədris bacarıqlarının tətbiqi səviyyəsini deyil, daha çox tədris üçün vacib olan adi, baza amillərinin mövcudluğunun müəyyən edilməsinə yönəldilmişdir. Məsələn, meyarlar cədvəli müəllimin dərsdə fənn proqramı, sillabus, mühazirə mətni, seminar və laborator məşğələləri üçün texniki təminatın olmasını, cari mövzunun fərdi tədris planına uyğunluğunu və digər amillərin olmasını yoxlayır. Lakin cədvəllərdə HƏ/YOX cavabları qeyd olunduğundan meyarların hər birinin səmərəlilik səviyyəsini təhlil etmək mümkün olmur. Digər tərəfdən isə bu meyarlar müəllimlərin innovativ və yaradıcı tədris metod və yanaşmalarının tətbiqinin təhlilinə yönəltmir və müəllimlərə istiqamət vermir. Bu baxımından keçirilən monitorinqlərin faydası yüksək qiymətləndirilə bilməz.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının vəziyyətinin qiymətləndirilməsi sisteminin mövcud olmadığı qənaətinə gəlmək olar. Təhsil proqramı üzrə proseslərin monitorinqinin aparılması üçün daha səmərəli və istiqamətverici meyarların yaradılması, monitorinq zamanı toplanılan məlumatların təhlil olunması, faydalı əks-əlaqənin yaradılması, peşəkar müzakirələr və məsləhətlərin verilməsi üçün zəruri işlərin görülməsi məqsədəmüvafiqdir. Bu istiqamətdə işlərin planlı və sistemli həyata keçirilməsi məqsədilə fakültədə ixtisas proqramı üzrə koordinatorun təyin olunması, kafedralar və Keyfiyyət təminatı mərkəzinin yaxından əməkdaşlıq etməsi tövsiyə olunur.

### 8.7 Təhsil proqramı üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Təhsil proqramı üzrə ştatda olan professor-müəllim heyəti arasında dərs yükü bölgüsünün dürüst və şəffaf meyarlar əsasında aparılması müvafiq qaydalara əsasən icra edilir (bax: AR NK-nin 24 noyabr 2010-cu il tarixli 215 saylı Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında Qərarı", ETN-nin 24.02.1994-cü il tarixli 113 saylı əmri ilə təsdiq edilmiş "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodik və digər işlərin növləri barədə Sənəd"; Rektorluğun 15.03.2021-ci il tarixli 5/68 saylı "Dərs yüklərinin planlaşdırılması Qaydaları"). Auditoriya və auditoriyadan kənar saatların nisbəti qorunur. Kafedralar üzrə dərs yükü ixtisas və fənlərin spesifikası nəzərə alınmaqla aparılır.

Sahə səfəri zamanı aparılmış müsahibə və görüşlər zamanı dərs yükü bölgüsünün qeyri-şəffaf aparılması faktlarına və professor-müəllim heyəti tərəfindən hər-hansı narazılıqlara rast gəlinmədi.

**8.8 Təhsil proqramı üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

Proqram üzrə professor-müəllim heyətinin ümumi sayı 76 nəfərdən ibarətdir. Bunlardan 24 nəfəri ixtisas fənləri üzrə, 52 nəfəri isə qeyri-ixtisas fənlərini və təcrübə saatlarını tədris edir. Tələbələrin sayının 324 nəfər olduğunu nəzərə alsaq, professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/4 olduğu aydın olur.

**8.9 Təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

Proqram üzrə professor-müəllim heyətinin ümumi sayı 76 nəfərdir və onların hamısının əsas iş yerinin GDU olduğu müəyyən edildi.

**8.10 Təhsil proqramı üzrə kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

Sahə səfəri zamanı müəyyən olundu ki, GDU müvafiq regionda "İbtidai sinif müəllimliyi" ixtisası üzrə mütəxəssis hazırlığını təşkil edən yeganə ATM-dir və bu səbəbdən kənardan professor-müəllim heyətinin cəlb edilməsinə ehtiyac yaranmır.

**8.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

Akkreditasiya dövründə akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilmir.

**8.12 Təhsil proqramı üzrə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti**

Sahə səfəri zamanı müəyyən edildi ki, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış müəllimlər təhsilverənlər sırasında mövcud deyil.

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

### 9.1 Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na dair Tövsiyələr sənədində seçmə fənlərin birinci kurslar üçün ali təhsil müəssisəsi tərəfindən, yuxarı kurslar üçün isə özləri tərəfindən seçildiyi vurğulanır (bax: Kredit sistemi metodik göstəriş). Universitet əməkdaşları və tələbələrlə aparılan müsahibələrdə də seçmə fənlərin tələbələr tərəfindən seçildiyi qeyd edilib. GDU-nun bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları haqqında sənəddə də bu qeyd olunur. Seçimi təmin etmək məqsədilə müvafiq fənləri tədris edən müəllimlərin tələbələrlə görüşləri təşkil olunur, həmin görüşlər zamanı müəllimlər öz fənləri haqqında məlumat verir. Əlavə olaraq tyutorlar da seçmə fənlər haqqında məlumat verir və tələbələrin sualarına cavab verməyə çalışır.

Sahə səfəri zamanı fakültənin təqdim etdiyi tələbələrin fərdi tədris planlarına əsasən təhsilalanın fərdi tədris planlarının tərtib edilməsində tam iştirak etmədiyi qeydə alınmışdır. Tələbələrlə görüş zamanı aşkar olundu ki, onlar öz fərdi tədris planlarının hazırlanma prosedurunu izah etməkdə çətinlik çəkirlər, bəziləri isə fərdi tədris planlarını onlara verilən vərəqdən köçürdüklərini bildirdilər. Fakültədə bəzi tələbələrin fərdi iş planları ilə tanış olarkən eyni diyircəkli qələmlə və eyni xətlə yazıldığı aşkar olundu.

### 9.2 Təhsil proqramı üzrə tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Sahə səfəri çərçivəsində tələbələr və eləcə də, müəllimlərlə aparılan müsahibələr zamanı aydın oldu ki, tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər tələbələrə seçim üçün təqdim olunmur. Yalnız dərslərdə müəllimlər tələbələrə seçmə fənn haqqında ümumi məlumat verirlər. Seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyi təmin olunmur, bunu həyata keçirəcək bir mexanizm də mövcud deyil. Fakültədə seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyini təmin etmək üçün bir qayda, mexanizm, seçmə fənlər haqqında dərsdən kənar tələbələrə daha geniş məlumatların verilməsi mexanizmini işləyib hazırlamaq tövsiyə olunur.

**9.3 Təhsil proqramı üzrə təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Akademik məsləhətçi (tyutor) xidmətinə işə qəbulun imtahan yolu ilə aparılması və imtahandan uğur qazanan namizədlərin sayının nəzərdə tutulan qədər olmaması tələbələr tərəfindən seçim aparılmasına əngəl təşkil edir. Təhsilverənlərin, seçmə fənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən sərbəst seçiminin Bolonya prinsiplərinə uyğun olaraq təmin olunması tövsiyə edilir.

"Gəncə Dövlət Universitetinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları" haqqında sənədinə əsasən tələbələrə müəllim və seçmə fənləri seçmək hüququ verildiyi qeyd edilsə də, tyutorların seçimi haqqında qeyd yoxdur (bax: Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodiki tövsiyələr). Universitet tərəfindən tərtib edilən Özünütəhlil Hesabatı və aparılan müsahibələrə əsasən, tələbələrin tyutor seçimində sərbəstliyi təmin edilmir. Buna səbəb tyutor xidmətinin 2022-ci ildə yaradıldığı və imtahan nəticəsində yalnız 3 nəfərin tyutor kimi işə götürüldüyü göstərilmişdir.

Bu sərbəstliyin təmin edilməsi, eləcə də tyutorların iş yükünün azaldılması məqsədilə tyutor sayının tələbə sayına müvafiq olaraq artırılması tövsiyə olunur.

**9.4 Təhsil proqramı üzrə tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

Təhsil proqramı üzrə tələbə və məzunlar arasında Keyfiyyət təminatı mərkəzinin təşkilatçılığı ilə "GDU-da tələbə məmnuniyyətinin qiymətləndirilməsi", "Tələbələrin müəllimləri qiymətləndirməsinə müəllimlərin münasibəti", "Professor-müəllim heyətinin təlim və tədris, öyrənmə və tədqiqat proseslərinin qiymətləndirilməsi", "GDU-nun tələbə yataqxanasında qalan tələbələrin məmnuniyyətinin ölçülməsi və qiymətləndirilməsi", "Müəllimlərin təlim-tədris prosesindəki fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi" və s. sorğular həyata keçirilmişdir.




**Qrafik 8: Sorğuların hesabat dövrünə dair inkişaf dinamikası**

Buna baxmayaraq, sorğuların müntəzəm olaraq keçirilməsinə və sistemləşdirilməsinə ehtiyac vardır.

Keyfiyyətin təminatı mərkəzinin 2022-2023-cü və 2023-2024-cü tədris illəri üzrə hesabatlarına əsasən ötən illər ərzində ümumilikdə tələbə və məzunlar arasında 7 ( 2022-2023 -cü illərdə 4, 2023-2024 -cü illərdə 3) sorğu keçirilmişdir. Özünütəhlil Hesabatına əsasən, GDU tərəfindən 2019-2020-ci tədris ilində 2 və 2021-2022-ci illə tədris ilində isə 1 sorğu keçirilib. Daha öncəki illərdə sorğuların keçirilib keçirilmədiyi haqqında məlumat yoxdur.

Tələbələrin sorğulara etinadsız yanaşacağı ehtimalını nəzərə alaraq, il ərzində sorğuların çox sıxlıqla keçirilməməsinin məqsədi anlaşılandır, amma əsas diqqət sorğuların tərtibatına və sorğu nəticələrinin təhlilinə verilməlidir.

Müsahibələrdə sorğuların təhlilinin aparılması və nəticələrin necə saxlanılması haqqında məlumat verilməmişdir, lakin qeyd olunmuşdur ki, bu sorğuların nəticəsində tələbə məmnuniyyətinin artırılması üçün bəzi addımlar atılıb.

Tələbələrlə sorğuların keçirilməsinin məqsədini, tezliyini və nəticələrin təhlilini özündə əks etdirən ATM-nin müvafiq platforması hazırlanmalıdır.

### 9.5 Təhsil proqramı üzrə tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Müsahibələrdə qeyd edilmişdir ki, aparılan sorğuların nəticəsində tələbə məmnuniyyətinin artırılması üçün bir neçə addımlar atılıb. Bunlara mühazirələrin Azərbaycan və ya türk dillərində universitetin rəsmi saytına yerləşdirilməsi, universitet tərəfindən

auditoriyalarda masaların dəyişdirilməsi, təhlükəsizlik kameralarının quraşdırılması, kompüterlərlə təmin edilməsi, tələbə yataqxanasında internetə çıxışın təmin edilməsi, mühafizə xidmətinin yüksəldilməsi, 2-ci tədris binasında şəraitin yaxşılaşdırılması daxildir. Digər tərəfdən müsahiblərin bildirdiyinə əsasən, universitetdə internetlə və laboratoriya avadanlıqları ilə əlaqəli şikayətlərlə bağlı maliyyə çatışmazlıqları səbəbindən hələ də müvafiq addımlar atılmamışdır. Keyfiyyət təminatı mərkəzi rəhbəri ilə müsahibədən alınan məlumata görə, ixtisas üzrə tələbə və məzunlar arasında keçirilmiş sorğular nəticəsində əldə edilmiş təkliflər əsasında müəllimlərin dərsləri daha keyfiyyətli təşkil etməsinə nəzarətin gücləndirilməsi, tələbə yataqxanasında şəbəkə sisteminin yenilənərək yüksəksürətli internetlə təmin edilməsi, təhlükəsizlik kameralarının quraşdırılması, yeməkxanada yeməklərin keyfiyyətinin yüksəldilməsi, fakültələr üzrə oxu zallarının yeni ədəbiyyatlarla təmin edilməsi, tələbələrin kompüter laboratoriyalarından istifadəsi üçün vaxt müddətinin artırılması, asudə vaxtlarının daha səmərəli təşkil edilməsi kimi bir çox yeniliklər (qərarlar) həyata keçirilmişdir. Ancaq inkişaf dinamikası ilə bağlı sənəd təqdim edilməmişdir. Fakültədə bu istiqamətdə tətbiq olunan yeniliklərin inkişaf dinamikası ilə bağlı sorğuların keçirilməsi, təhlillərin aparılması, nəticələrə dair rəy və təkliflər hazırlanaraq icra edilməsi məqsədəuyğundur.

**9.6 Təhsil proqramı üzrə tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair 2019-2023-cü illər üzrə hesabatda qeyd edilir ki, GDU-da son 3 ildə 5500 tələbənin iştirakıyla “Google Forms” üzərindən 7 sorğu keçirilib. Sorğuların nəticəsində universitet üzrə tələbə və müəllimlərin məmnunluq dərəcəsinin 76%-dən yüksək olduğu qeyd edilir. Hesabata əsasən qərarvermə prosesində sorğuların nəticəsinin təhlili zamanı aşkarlanmış çatışmazlıqlar və istəklərin mühüm rolu olduğu bildirilir, sorğu nəticələri GDU Elmi Şurasında müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmiş və icrası üçün göstərişlər verildiyi bildirilmişdir. Lakin bu sorğuların müştərək qərarvermə prosesində tətbiq edilməsi mexanizmi aydın deyil. Sorğuların təhlilləri ilə bağlı vahid məlumat bazalarının olması və illər üzrə təhlillərin və müqayisələrin aparılması tövsiyə edilir.

Sorğuların keçirilməsindən əlavə tələbələrlə tez-tez görüşlərin təşkil olunması barədə səfər zamanı verilən məlumatda qeyd olunmuşdur ki, tələbələrin rəyini nəzərə alaraq qərarların verilməsi ATM-in rəhbərliyinin prioritet məsələlərindən biridir. Bu təqdirəlayiq haldır. Komissiyanın "tələbələrin hansı rəy və təklifləri nəzərə alınır" sualına verilən cavablardan ATM-də "tələbəyönümlü tədris" anlayışının bir qədər qeyri-müəyyən olduğu görsənir. Verilən məlumata görə, imtahan sessiyası zamanı kafedra və fakültələr tərəfindən əvvəlcədən müəyyən edilmiş qiymətləndirmə növü və formatı tələbələrin xahişinə əsasən rektorun qərarı ilə dəyişdirilə bilər. Bu kimi qərarların tələbə məmnuniyyətini qarşılamaq məqsədilə verilməsi vurğulanmışdır. Qeyd edilməlidir ki, belə qərarların tələbənin xahişi ilə dəyişdirilməsi məqsədəmüvafiq olmaya bilər, çünki fənn/fənnlər üzrə qiymətləndirmə onun təlim nəticələrindən və fənnin xüsusiyyətindən irəli gələn bir mexanizmlə tənzimlənməli və kafedra və fakültələr tərəfindən planlaşdırılmalıdır. Bu kimi qərarlara ani müdaxilələr fənn üzrə bilik və bacarıqların qiymətləndirilməsində qeyri-obyektiv və qeyri-etibarlı məlumatların əldə edilməsilə nəticələnə bilər. Bununla bağlı tövsiyə olunur ki, ATM-də və xüsusilə də, Pedaqoji fakültədə "tələbəyönümlü tədris" və "tələbəyönümlülük" konseptual anlayışları üzərində düşünülsün və daha şəffaf və müştərək qərarvermə proseslərinin tətbiqinə yer verilsin.

### 9.7 Təhsil proqramı üzrə təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Müsahibələr zamanı aldığımız məlumatlara əsasən, "Google Forms" təhsilalanlar arasında istifadə edilən əsas sorğu vasitəsidir. Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair 2019-2023-cü illər üzrə hesabatında isə təhsilalanların şikayət və təklifləri Tələbə Ombudsmanına sərbəst şəkildə çatdırması üçün "ombudsman@gdu.edu.az" ünvanına müraciət edə bildikləri qeyd edilir (Bax: GDU Daxili keyfiyyət təminatı 5 illik hesabatı).

Universitetin elektron səhifəsində Tələbə Ombudsmanının vəzifə öhdəlikləri və prosesə dair məlumatlar yerləşdirilmişdir. Müraciət edən tələbələrin anonimliyinin qorunduğu bildirilir. Bundan başqa, müsahibədə qeyd edilir ki, tələbələr şikayət və ya təkliflərini açıq şəkildə dekanlara da bildirə bilir və onların anonimliyi hər zaman qorunur. Lakin tələbələrin müraciət etdiyi məsələlər barədə fakültələrdə müzakirələrin aparılması, şikayətlərin xarakterinin təhlilinin aparılması və hər hansı preventiv tədbirlərin görülməsinə dair təsdiqləyici sənəd təqdim olunmamışdır.

**9.8 Təhsil proqramı üzrə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti**

GDU-da 2022-ci ildə tyutor xidməti yaradılıb. Bu barədə Gəncə Dövlət Universitetinin Akademik məsləhətçilər (Tyutor) xidmətininin əsasnaməsində qeyd edilir: “Akademik məsləhətçilər (tyutor) xidməti Tədris departamentinin tərkibində Universitetin Nizamnaməsinə uyğun fəaliyyət göstərən, fakültələr üzrə tələbələrin akademik maraqlarını qoruyan tədris məsləhətçilərinin fəaliyyət göstərdiyi struktur bölmədir” (Bax: Tyutor xidmətinin əsasnaməsi). Bu bölmədə Akademik məsləhətçilər (tyutor) rəhbəri və 3 tyutor fəaliyyət göstərir. Tyutorlara işə götürüldükdən sonra təhsilalanlarla fəaliyyətləri haqqında təlimlər keçirilib. Hər bir tyutorun ixtisasları bir-birindən fərqlənir. Belə ki, tyutorlar ibtidai təhsil (rus dilində), riyaziyyat və peşə təhsili üzrə ixtisaslaşıblar.

**9.9 Təhsil proqramı üzrə tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti.**

Tyutorlarla aparılan müsahibələrdə təhsilverənlərlə kommunikasiyalarını əksər hallarda sosial şəbəkələr (Vatsap qrupu və ya fərdi mesajlaşma, instaqram səhifəsi), bəzən isə email üzərindən qurulduğu, eləcə də universitetdə üzbəüz görüşlər keçirildiyi qeyd edilmişdir. Tələbələr də tyutorlarla müntəzəm olaraq onlayn və üzbəüz kommunikasiya qurduqlarını təsdiq edirlər.

**9.10 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

Özünütəhlil Hesabatında sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnun əldə edilməsi istiqamətində təhsilin bütün səviyyələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi və onların təhsili üçün tədris prosesində əlverişli mühitin yaradılması qeyd olunur. Bundan başqa, universitetin 2023-2028-ci illər üçün Strateji Planına daxil edilənlər sırasında sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasını yaratmaq daxildir (bax: Strateji Plan AZ_2023-2028). ATM-ə səfər zamanı bildirildi ki, təhsil proqramında sağlamlıq imkanları məhdud olan tələbələr təhsil

almır. Bu səbəbdən bu meyar üzrə təşkil olunan fəaliyyətlərin səmərəliliyinin qiymətləndirilməsi mümkün olmadı.

### 9.11 Təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ATM-in Özünütəhlil Hesabatına əsasən, sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən təmin edilir. Sənəddə vurğulanır ki, sosial həssas qrupa aid edilən tələbələrin bir qrupu təhsil haqqından azaddırlar. Digər qrupun təhsil haqqı isə ETN-nin "Təhsil Tələbə Krediti" və "Yaşat" Fondu tərəfindən ödənilir (bax: Tədrisin Təşkili və İdarə olunması sektoru- vəzifə bölgüsü- 2022). Bu təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti müvafiq sənədlərdə öz əksini tapmasının göstəricisidir. Özünütəhlil hesabatında qeyd edildiyi kimi, Azərbaycan Gənclər Fondu, Maarifçi Tələbə Kredit Fondu, Tələbə Təhsil Kredit Fondu tərəfindən təhsilalanların təhsil xərclərinin qarşılanmasına şəarait yaradılır. Eləcə də, bundan əlavə GDU-nun Elmi Şurasının müvafiq qərarı əsasında Vətən müharibəsində iştirak etmiş tələbələr alt qrup ödənişlərindən azad edilmişdir. Sosial həssas qrupa aid edilən tələbələrin müraciəti əsasında sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə THİK tərəfindən maddi yardım edilir.

Tədrisin təşkili və idarə olunması sektorunun Əsasnaməsi ilə müəyyən olunmuş vəzifələr sırasına da sosial həssas qrupuna aid edilən tələbələrə xüsusi diqqət və qayğı göstərilməsi, onların təhsil haqqı ödənişindən azad edilməsi və təqaüdlə təmin olunması daxil edilir ki, bu sahədə ATM-nin fəaliyyət istiqamətlərinə uyğundur.

## 10. Təhsil proqramının monitorinqi

### 10.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Təqdim edilən Özünütəhlil Hesabatında təhsil proqramlarının monitorinqinin universitetin "Strateji Plan"ında öz əksini tapdığı, "Keyfiyyət Təminatı Siyasəti", "Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı" və "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" adlı sənədlərdə bu məsələnin nəzərə alındığı qeyd edilmişdir, lakin ibtidai təhsil müəllimliyi ixtisas proqramı üçün bu formatda istiqamətverici

sənədlərə rast gəlinmədi. Fakültə rəhbərliyi və kafedra rəhbərləri ilə müsahibələr zamanı toplanılan məlumatların təhlili bu faktdan irəli gələn vəziyyəti təsdiqləyir. Təhsil proqramının monitorinqi strategiyasının və müvafiq iş planının hazırlanması tövsiyə olunur. Bu istiqamətdə Keyfiyyət təminatı mərkəzi ilə əməkdaşlıq kontekstində fəaliyyətlərin həyata keçirilməsi məqsədəmüvafiqdir.

### 10.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Gəncə Dövlət Universitetində “İbtidai sinif müəllimliyi” proqramı üzrə təlim nəticələrinin “Keyfiyyət təminatı siyasəti”, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi təlimatı” və “Keyfiyyət təminatı və qiymətləndirmə komissiyasının əsasnaməsi” adlı sənədlərlə tənzimlənməsi nəzərdə tutulur. Kafedralarda təhsil proqramı üzrə fənnin təlim nəticələrinin təsvir olunduğu fənn sillabuslarında öz əksini tapmasına nəzarət edilir. Fənn proqramlarını, sillabusları və kafedra iclaslarının protokollarını təhlil edərək bu qənaətə gəlinmişdir ki, proqram üzrə təlim nəticələrinin fənnin təsvirinə uyğun yazılması, hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları, istifadə olunan qiymətləndirmə üsullarının düzgün seçilməsinə diqqət yetirilir, monitorinqlər aparılır. Fənnin təlim nəticələrinin fənn proqramlarında və sillabuslarda öz əksini tapmasına diqqət yetirilir.

### 10.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə tövhəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Sahə səfəri zamanı müəyyən olundu ki, təhsil proqramının monitorinqi aparılmamışdır. Hər hansı sənəd təqdim olunmadığı üçün təhsil proqramının monitorinqinin daxili keyfiyyət təminatı sisteminə verdiyi töhfəni qiymətləndirmək mümkün olmamışdır. Təhsil proqramı üzrə hər tədris ili özünütəhlilin aparılması, hesabatların təhlil olunması, SWOT təhlilin aparılması, üzə çıxarılan zəif cəhətlərinə istiqamətlənən mümkün tədbirlərin görülməsi tövsiyə olunur.

### 10.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatına görə, fakültə tərəfindən hazırlanmış ibtidai sinif müəllimliyi proqramının illik özünüqiymətləndirmə hesabatı Keyfiyyət

təminatı mərkəzinin əməkdaşları tərəfindən təhlil olunduqdan sonra onun əsasında Keyfiyyət təminatı mərkəzinin illik hesabatı hazırlanır. Lakin fakültə tərəfindən təhsil proqramının illik özünüqiymətləndirilməsinin nəticələrinə dair hesabatlarının keyfiyyət təminatı mərkəzinə təqdim edildiyi qeyd olunsa da, bu sənəd Komissiyaya təqdim edilməmişdir.

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

### 11.1 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

İxtisas üzrə təhsil proqramı ETN-nin 28.08.2020-ci il tarixli F-386 saylı əmri ilə təsdiq edildiyinə görə universitet tərəfindən təhsil proqramına dəyişiklik edilməsinə icazə verilmir. Təhsil proqramının yalnız “Ali təhsil müsəssisəsi tərəfindən müəyyən edilən fənlər” bölümünə universitet tərəfindən seçmə fənlər daxil edilə bilər. Sahə baxışı zamanı məlum oldu ki, ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər müasir dövrün əmək bazarı üçün aktual olan səriştələrin formalaşdırılmasına yönəldilmir, əksinə “Nizaminin pedaqoji görüşləri”, “Nizaminin psixoloji görüşləri”, “Ailə tərbiyəsi” kimi fənlər məzmun baxımından tələbələrdə deklarativ xarakterli biliklərin təqdim olunması məqsədini daşıyır, təlim nəticələri baxımından isə nə tənqidi və analitik təfəkkürün, nə də tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasını təşviq etmir. Həmin mövzular ”Pedaqogika tarixi” fənninin məzmununda əks olunduğu üçün, bu mövzuların ayrıca fənn kimi keçirilməsi tədris planında təkrarçılığa yol açır. Qeyd edilməlidir ki, müsahibələr zamanı tələbələr də fənlərin maraqsız və gələcək peşə fəaliyyəti üçün faydasız olduğu fikrini ifadə etdilər. Fakültə üzrə fəaliyyət göstərən ”Monitorinq və Qiymətləndirmə Komissiyası”na əmək bazarını və yenilənən, inkişaf edən cəmiyyətin vacib problemlərini öyrədən faydalı fənlərin tədrisinin təşkilinə səy göstərmək tövsiyə olunur. Eyni zamanda ölkəmizin inkişafının prioritet sahələrini müəyyən edən proqrama müvafiq sənədlərin, sərəncamların (məsələn, Azərbaycan 2023: sosial-iqtisadi inkişaf dair Milli Prioritetlər sənədi) akademik və inzibati heyət tərəfindən təhlilini təşviq edən mühitin yaradılması, ixtisas proqramının təkmilləşdirilməsi istiqamətində görüləcək işlərin planlaşdırılması Komissiya tərəfindən tövsiyə olunur.

**11.2 Təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində nüfuzlu ali təhsil müəssisələrinin proqramlarına istinad vəziyyəti**

Sahə baxışı zamanı məlum oldu ki, təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsi məqsədi ilə proqramın "Ali təhsil müsəssisəsi tərəfindən müəyyən edilən fənlər" bölümünə universitet tərəfindən seçmə fənlər daxil edilən zaman respublikanın digər ali təhsil müssisələrinin proqramlarına istinad edilmir.

**11.3 Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunması vəziyyəti**

Təhsil proqramının yenilənməsində maraqlı tərəflərin iştirakına dair yalnız tələbələrin təcrübə/pedaqoji internatura keçdikləri baza məktəblərinin pedaqoji kollektivləri ilə yaxın əməkdaşlıq münasibətlərinin qurulması və məzunlar arasında sorğuların aparılması kimi fəaliyyətlər nümunə göstərilə bilər.

Bu istiqamətdə aparılan işlərin sistemli şəkildə təşkil olunması, ATM və Pedaqoji fakültə üçün prioritet sahələr kimi müəyyənləşdirilməsi tövsiyə olunur.

**12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi**

**12.1 Təhsil proqramı üzrə tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti**

Universitetdə "Təcrübə və karyera" şöbəsi fəaliyyət göstərir (bax: https://gdu.edu.az/təcrubə-və-karyera-sobəsi/ ). Şöbə tərəfindən hər tədris ili üzrə fəaliyyət planı əsasında məzunlar və tələbələrlə müəyyən işlər aparır. Karyera mərkəzinin işini çoxşaxəli qura bilməsi üçün öz əməkdaşlarının xarici ali məktəblərlə mübadilə proqramında iştirakı, digər karyera mərkəzləri ilə əlaqələr qurması tövsiyə olunur. Tələbə və məzunlara göstərilən karyera xidmətlərinin daha da genişləndirilməsi (CV-lərin yazılması, yumşaq bacarıqların formalaşdırılması, idarəetmə bacarıqları, sosial vərdiş və bacarıqların inkişaf etdirilməsi ilə bağlı təlimlər və s.) məqsədəmüvafiq olar.

### 12.2 Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

İxtisas proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi məqsədi ilə Təcrübə və karyera şöbəsi tərəfindən 2019-2023-cü illəri əhatə edən MİQ imtahanının nəticələri əsasında məlumatlar bazası yaradılmışdır. Məzunların əmək bazarında iştirakının izlənilməsi üçün hər tədris ilinin sonunda təşkil olunan məzun yarmarkasına dəvət edildiyi qeyd olunsa da, bunu təsdiqləyən hesabatlara rast gəlinmədi. Bu baza vasitəsilə bəzi məzunların iş yerləri tapmasında, MİQ imtahanından uğurlu nəticə göstərməyən məzunların yerli tədris mərkəzlərində işə götürülməsinə köməklik göstərildiyi ifadə edilmişdir.

İxtisas proqramlarının təkmilləşdirilməsi üçün uzun-müddətli məlumatları əhatə edən bazanın yaradılması və təhlillərin aparılması, məzunlar arasında sorğuların təşkili istiqamətində müvafiq işlərin görülməsi Komissiya tərəfindən tövsiyə edilir.

### 12.3 Təhsil proqramı üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi üçün Keyfiyyət təminatı mərkəzi tərəfindən “GDU-nun məzunlar tərəfindən qiymətləndirilməsi” adlı sorğu təşkil edilmişdir. Sorğunun nəticələrinin təhlili və yekun hesabatın mövcudluğu, ondan irəli gələn qərarlar və vəzifələri nümayiş etdirən sənəd təqdim olunmamışdır. Bu istiqamətdə əhatəli və sistemli işlərin aparılması tövsiyə olunur.

### 12.4 Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə məzunların məlumat bazası yaradılmışdır və ATM-in müvafiq strukturu tərəfindən müxtəlif tədbirlərin təşkilində həmin bazaya müraciət olunur. Lakin məzunların tədbirlərdə iştirakı səviyyəsi, onların verdiyi töhfə və əks-əlaqələrin təhlilini əks etdirən sənədlər təqdim olunmamışdır. Bu istiqamətdə də sistemli və planlı işlərin aparılması tövsiyə olunur.

**Komissiyanın meyarlar üzrə təhlili**

| **1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Əhatə etdiyi regionda yaşayan və bu ixtisasa yiyələnmək istəyən abituriyentlər üçün əlçatan olması. |
| **Zəif tərəflər** | 1. Əmək bazarının ehtiyac və tələblərinin öyrənilmə mexanizminin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Əmək bazarının ehtiyac və tələblərinin təhlilinə əsasən növbəti illər üçün tələbə qəbulu sifarişinin say həddinin müəyyən edilməsi;<br>2. Bu sahədə uğurlu təcrübəsi olan ATM-lərlə təcrübə mübadiləsinin aparılması. |

| **2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Digər ali təhsil müəssisələrində qazanılmış kreditlərin tanınması. |
| **Zəif tərəflər** | 1. Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) səviyyə deskriptorlarına (təsvirlərinə) uyğun Təhsil proqramının tədrisinin təşkil edilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Prosesdə ARNK, ETN  müvafiq normativ sənədlər bazasının öyrənilməsi və tətbiq edilməsi. Hazırki dövrdə tətbiq olunan yanaşmaların normativ sənədlərə uyğunluğunun |

| | |
|---|---|
| | dəyərləndirilməsi və fəaliyyətlərin təşkili, nəzarətin gücləndirilməsi. |
| **3. Təhsil proqramı üzrə tədrisin təşkili** | |
| **Güclü tərəflər** | 1. Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun təşkili;<br>2. Tədris planında semestrlər ərzində nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbələrə dərsdənkənar məşğələlər üçün vaxt ayırmasına imkan verməsi. |
| **Zəif tərəflər** | 1. Tədrisin təşkili prosesində iştirak edən tərəflərin (fakültə dekanlığı, kafedra rəhbərliyi, fakültənin elmi şurası, Tədris departamenti və Keyfiyyət təminatı mərkəzi, Karyera təcrübə mərkəzi) arasında koordinasiyanın olmaması və qərarların şəffaf verilməməsi;<br>2. Təhsil proqramını təşkil edən fakültə, kafedra və digər struktur bölmələrin bakalavriat səviyyəsində təhsilin təşkili ilə bağlı normativ-hüquqi sənədlər barədə məlumatsız olmaları;<br>3. Tədris planında ixtisas fənlərinə ayrılan saatların az olması;<br>4. Tədris planında ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərin ixtisasın spesifikasına uyğun gəlməməsi, daha çox kafedrayönümlü və ya müəllimyönümlü olması;<br>5. Təhsil proqramında tədris aparan professor-müəllim heyətinin fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirə bilməməsi;<br>6. Təlim nəticələrinin hazırlanması və nəzarət mexanizminin olmaması;<br>7. Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyətinin qeyri-kafi olması; |

| | |
|---|---|
| | 8. Professor-müəllim heyətinin öz bilik və bacarıqlarının artırılması üçün yerli və beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirak üçün marağının olmaması;<br>9. Universitetin professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılmasında maraqlı olmaması;<br>10. Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyətinin qeyri-qənaətbəxş olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Müvafiq struktur bölmələr arasında koordinasiyanın yaradılması və qərarvermə prosesində şəffaflıq və uyğunluq prinsiplərinə riayət edilməsi istiqamətində fəaliyyətin təşkil;<br>2. Tədris planında ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərin müasir dövrün və əmək bazarının tələblərinə uyğun fənlərlə əvəz edilməsi;<br>3. Stajkeçmə təşkili sahəsində daha uğurlu göstəriciləri olan ATM-lərlə əməkdaşlıq aparılması və stajkeçmə mexanizminin qurulması;<br>4. Professor-müəllim heyətinin öz bilik və bacarıqlarının artırılması üçün yerli və beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakının təmin edilməsi;<br>5. Universitetin professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılmasına dair strategiyanın müəyyən edilməsi;<br>6. Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi üzrə mexanizmin qurulması. |

| 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları | |
|---|---|
| **Güclü tərəflər** | 1. Sinif otaqlarında texniki avadanlıqların mövcudluğu;<br>2. İxtisas kafedralarında tədris metod və üsulları ilə bağlı müəyyən işlərin aparılması və müəllimlərin məlumatlandırılması üçün səylərin göstərilməsi. |
| **Zəif tərəflər** | 1. Tədris prosesində tətbiq olunan tədris üsul və metodlarının fənnin məqsədlərinə və təlim nəticələrinə xidmət etməməsi;<br>2. Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə prosesinin təşkilində tələbəyönümlülük prinsipinin gözlənilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Kafedralarda tədrisin təşkili vəziyyətinin öyrənilməsi məqsədilə aparılan işlərin Keyfiyyət təminatı mərkəzi tərəfindən ciddi nəzarətə götürülməsi;<br>2. Müəllimlərin tələbəyönümlü tədrisin təşkili üzrə səriştələrinin artırılması üçün sistemli və planlı təlimlərin təşkil edilməsi. |

| 5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları | |
|---|---|
| **Güclü tərəflər** | 1. “Ultra” MMC ilə əməkdaşlıq müqaviləsi imzalanaraq “Eduman” (www.eduman.gdu.edu.az) proqram təminatının alınması;<br>2. Təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın təşkili üçün müvafiq işlərin görülməsi;<br>3. Mövcud tədris resurslarının müəllim və tələbə heyəti üçün əlçatan olması;<br>4. Ümumi kitabxana fondunun hər kəs üçün əlçatan olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Son 5 ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin kitabxana fonduna daxil edilməməsi (Özünütəhlil hesabatında qeyd edilən 16 adda yeni nəşrin siyahısı kitabxana tərəfindən təqdim edilməmişdir), ixtisas üzrə kitabxana fondunun artım dinamikasının zəif olması;<br>2. Texniki avadanlıqla tam təchiz olunmuş auditoriyaların sayının yetərli olmaması, mövcud olan auditoriyaların isə tədirsin səmərəli təşkili üçün tələblərə cavab verməməsi;<br>3. Kompüter laboratoriyalarının, o cümlədən auditoriyaların internetə çıxışının olmaması, internetə qoşulmuş kompüterlərin sürətinin aşağı olması;<br>4. Təlim və tədris resurslarının monitorinqinin planlı, sistemli və mərkəzləşmiş qaydada aparılmaması, təlim və tədris resurlarının təkmilləşdirilməsi üçün işlərin qeyri-qənaətbəxş vəziyyətdə olması;<br>5. Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcud olmaması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Mövcud resursların və maddi texniki bazanın idarə edilməsində hesabatlılıq və məsuliyyətlilik prinsiplərinə əsaslanan vahid yanaşmanın təmin edilməsi;<br>2. Kitabxana fondunun son dövrün dərslik və dərs vəsaitləri ilə zənginləşdirilməsi;<br>3. Kitabxana fondunun xərcləri üzərində nəzarətin gücləndirilməsi;<br>4. Təlim-tədris resurslarının təkmilləşdirilməsi üçün ixtisas kafedralar arasında əlaqəli işlərin aparılması üçün uzun-müddətli fəaliyyət planının hazırlanması;<br>5. Rəqəmsal xidmətlərin və texniki təminatın keyfiyyətinin yaxşılaşdırılması. |
| **6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi- texniki baza** | |
| **Güclü tərəflər** | 1. Təhsil proqramı üzrə mövcud tədris infrastruktunun əlçatan olması və mövcud infrastrukturun təkmilləşdirilməsi istiqamətində müvafiq işlərin aparılması;<br>2. Ümumi kitabxana fondunun tələbə sayına görə yetərli olması;<br>3. Tələbələrin asudə vaxtının təşkili üçün idman meydança və otaqlarının mövcud olması;<br>4. Distant təhsil infrastrukturunun təkmilləşdirilməsi üzrə işlərin aparılması;<br>5. Təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının mövcudluğu. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Auditoriyaların tərtibinin standartlara cavab verməməsi və elektrik təhlükəsizlik qaydalarına əməl edilməməsi;<br>2. Auditoriyalarda internet sürətinin aşağı olması;<br>3. Təhsil proqramı üzrə kitabxana fondunun yetərli olmaması və son dövrün nəşrlərinin fonda daxil edilməməsi;<br>4. Elektron kitabxanada tələbələrin istifadəsi üçün nəzərdə tutulmuş kompüterlərin sayının tələbə sayına nisbətdə çox az olması və elektron kitabxanalara çıxışın olmaması;<br>5. Təhsil proqramının yerləşdiyi tədris binasında sanitar qovşaqların təmizlik səviyyəsinin qənaətbəxş olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Fakültə və kafedraların idarə edilməsində planlaşdırma, təşkil etmə və nəzarətetmə funksiyaları ilə yanaşı, hesabatlılıq, şəffaflıq və məsuliyyətlilik prinsipilərinə əsaslanan vahid yanaşmanın təmin edilməsi;<br>2. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün internet və texniki təminatın gücləndirilməsi;<br>3. Kitabxana fondunun müvafiq sahədə yeni nəşrlərlə zənginləşdirilməsi. Bu sahədə tələbələr, məzunlar və təcrübə bazası olan məktəblərlə işlərin aparılması;<br>4. Elektron kitabxananın təkmilləşdirilməsi. Bu sahədə qabaqçıl təcrübəsi olan ATM-lər ilə əməkdaşlığın qurulması;<br>5. Sanitar-gigiyenik vəziyyəti daima nəzarətdə saxlaması üçün daha səmərəli mexanizmin yaradılması. |

| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tədris departamenti tərəfindən bilik və bacarıqların qiymətləndirilməsi müvafiq normativlərə uyğun təşkil edilir;<br>2. ATM-in “Ali təhsildə qiymətləndirmə Konsepsiyası” mövcuddur. |
| **Zəif tərəflər** | 1. Müəllimlər tərəfindən tələbələrin cari və aralıq qiymətləndirilməsi ölçüləbilən meyarlara əsaslanmır;<br>2. Tələbələrə özünüqiymətləndirmə bacarıqları aşılanmır;<br>3. Müəllimlər tələbələrin biliyini ənənəvi üsulla qiymətləndirməyə davam edir (nümunə: frontal sorğu);<br>4. Semestr imtahanlarının nəticələrinə əsasən, müvafiq kafedralarda analitik təhlillərin aparılmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Müəllimlərin tələbələrin qiymətləndirilməsi üzrə səriştələrinin artırılması ilə bağlı mütəmadi təlimlərin təşkili;<br>2. Bu sahədə qabaqçıl təcrübəsi olan ATM-lər ilə davamlı təcrübə mübadiləsi üçün şəraitin yaradılması. |

| 8.Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti | |
|---|---|
| **Güclü tərəflər** | 1. İşə qəbul siyasətinin olması;<br>2. Dərs yükü bölgüsünün müvafiq normativ sənədlərə uyğun aparılması;<br>3. Təhsil proqramı üzrə professor-müəllim heyətinin tələbə sayına nisbətinin uyğun olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Pedaqoji fakültənin dekanının müvafiq sahənin mütəxəssisi olmaması proqramın səmərəli təşkilini məhdudlaşdırılması;<br>2. Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarların olmaması;<br>3. Professor-müəllim heyətinin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştiraka maraqlı olmaması, beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etməməsi;<br>4. Təhsil proqramı üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcud olmaması;<br>5. Akademik heyət üçün qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Pedaqoji fakültəyə rəhbərlik edən heyətin fəaliyyəti ilə bağlı göstəricilərə əsaslanan illik fəaliyyət planının hazırlanması və heyətin qiymətləndirilməsi. Səriştələrin təkmilləşdirilməsi üçün müvafiq uzun-müddətli və davamlı peşəkar inkişafa cəlb edilməsi, bu həm təlimləri, həm stajkeçməni əhatə etməlidir;<br>2. Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarların hazırlanması;<br>3. Mütəmadi olaraq professor-müəllim heyətinin səriştələrinin artırılması məqsədilə təlimlərin təşkili, ölkədə və xaricdə ixtisasartırma və digər təlim kurslarına göndərilməsi;<br>4. Təhsil proqramı üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin tədrisə cəlb edilməsi; |

| | |
|---|---|
| | 5. Akademik heyət üçün qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi mexanizminin hazırlanması. |

| **9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tyutor xidmətinin təşkilində səmərəli yanaşmaların tətbiqi və tələbə məmnunluğunun qazanılması. |
| **Zəif tərəflər** | 1. Tələbələr və məzunlar arasında dövri olaraq məmnunluq sorğularının keçirilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Təhsil proqramı üzrə təhsilalanların şikayət və/və ya təklifləri üçün onlayn sorğudan əlavə vasitə və mexanizmlərin yaradılması və universitetdə sorğu nəticələrini təhlil etmək və tələbələrə hesabat vermək üçün aydın bir prosesin yaradılması. |

| **10. Təhsil proqramının monitorinqi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. İxtisas kafedralarında təhsil proqramı üzrə təlim nəticələrinin fənnin sillabuslarında öz əksini tapmasına nəzarətin olması;<br>2. Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları, qiymətləndirmə üsullarının düzgün seçilməsi. |
| **Zəif tərəflər** | 1. İxtisas proqramının monitorinqi strategiyasının və fəaliyyət planının mövcud olmaması, nəticədə ixtisas |

| | |
|---|---|
| | təhsil proqramının monitorinqinin mütəmadi olaraq aparılmaması;<br>2. Müvafiq fakültədə ixtisas proqramının monitorinqi strategiyasının yaradılması üçün səriştəli kadrların olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Fakültədə təhsil proqramları üzrə monitorinq strategiyasının və fəaliyyət planının hazırlanmasının, tətbiqinin prioritet məsələlərdən biri kimi müəyyənləşdirilməsi;<br>2. Təhsil proqramının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanmasına xüsusi önəm verilməsi və bu istiqamətdə Keyfiyyət təminatı mərkəzi ilə əməkdaşlıq kontekstində birgə iş planının yaradılması. |

| **11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Təhsil proqramı üzrə pedaqoji internatura təşkil edən məktəblərin pedaqoji kollektiv ilə əməkdaşlıq əlaqələrinin qurulması. |
| **Zəif tərəflər** | 1. Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməməsi;<br>2. Digər ali təhsil müssisələrinin təhsil proqramlarına istinad edilməməsi; |

| | |
|---|---|
| | 3. Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunmaması;<br>4. Məzunların təhsil proqramının hazırlanmasında təkliflərinin nəzərə alınmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Fakültə üzrə fəaliyyət göstərən ”Monitorinq və Qiymətləndirmə Komissiyası” tərəfindən tədris planında ali təhsil müəssisələri tərəfindən müəyyən edilən fənlərin müasir dövrün və əmək bazarının tələblərinə uyğunlaşdırılması;<br>2. Eyni zamanda ölkəmizin inkişafının prioritet sahələrini müəyyən edən müvafiq proqramlı sənədlərin, sərəncamların (məsələn, Azərbaycan 2023: sosial-iqtisadi inkişaf dair Milli Prioritetlər sənədi) akademik və inzibati heyət tərəfindən təhlilini təşviq edən mühitin yaradılması və ixtisas proqramının təkmilləşdirilməsi istiqamətində görüləcək işlərin planlaşdırılması;<br>3. Təhsil proqramının yenilənməsi və hazırlaması işində məzunların təcrübəsindən faydalanması, onlarla bu sahədə peşəkar əməkdaşlığın qurulması. |

| **12.Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Universitetdə Təcrübə və karyera şöbəsinin fəaliyyət göstərməsi. |
| **Zəif tərəflər** | 1. Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcud olmaması; |

| | |
|---|---|
| | 2. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Karyera mərkəzinin işini daha çoxşaxəli qura bilməsi üçün mərkəzin əməkdaşlarının yerli və xarici ali məktəblərlə mübadilə proqramında iştirakının, karyera mərkəzləri, Dövlət Məşğulluq Agentliyi ilə əlaqələrin qurulmasının təmin olunması;<br>2. Məzunlarla bağlı mövcud bazada təhlillərin və təkmilləşdirilmənin aparılması;<br>3. Mütəmadi olaraq məzunlarla sorğular aparmaq, sorğulardan əldə olunan nəticələr və müvafiq təhlillər kontekstində təhsil proqramının təkmilləşdirilməsi. |

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri**

Gəncə Dövlət Universitetində "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqramın fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər və komissiyanın tövsiyəsi olmaqla) Komissiya tərəfindən proqram akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 12 meyar üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq proqramın fəaliyyəti ilə bağlı müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir meyar üzrə tövsiyələr təqdim edilmişdir (ümumilikdə 37 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti proqram akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin GDU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (üç) ay müddətində proqram üzrə müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

**Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi**

Gəncə Dövlət Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası Komissiyasının yekun rəyi aşağıdakı kimidir:

- Gəncə Dövlət Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası qiymətləndirilməsinin yekunu olaraq, bu proqramın müvafiq meyarlar üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "uyğun deyil" hesab edilməsi;

- Gəncə Dövlət Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil proqramının qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və təhsil proqramının 1 (bir) ildən sonra təkrar akkreditasiya edilməsi məqsədəuyğun hesab edilir.